XOCALI SOYQIRIMI XX ƏSRİN FACİƏSİDİR!

07 (1262) • 23 fevral - 1 mart 2023-cü il

# İQTİSADIYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## BİZ AZADLIQ UĞRUNDA MÜHARİBƏ EDİRDİK

"Biz öz ərazimizdə döyüşürdük. Biz azadlıq uğrunda müharibə edirdik. Ona görə də bu, ədalətli müharibə idi".

Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev fevralın 18-də Münxendə keçirilən "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasda çıxışı zamanı söyləyib.

Dövlətimizin başçısı qeyd edib: "Biz işğalçı müharibə aparmırdıq. Bu səbəbdən Ordumuzda döyüş meydanını tərk edən bir nəfər də yox idi. Şəhərlərimizin və kəndlərimizin "İsgəndər" raketləri ilə atəşə tutulduğu 44 gün ərzində heç kim döyüş meydanını tərk etmədi. Ermənistanda isə 11 min fərari var idi. Niyə? Ona görə yox ki, onlar döyüş meydanında məğlub olurdular, çünki onlar işğalçı müharibə aparırdılar. Onların motivasiyası yox idi".

## QARABAĞ MÜNAQİŞƏSİNİ DÖYÜŞ MEYDANINDA HƏLL ETMƏSƏYDİK, SÜLH DANIŞIQLARI DAHA 28 İL DAVAM EDƏCƏKDİ

"Biz Qarabağ münaqişəsini döyüş meydanında həll etməsəydik, onda bu sülh danışıqları daha 28 il davam edəcəkdi".

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev fevralın 18-də Münxendə keçirilən "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasda çıxışı zamanı söyləyib.

"Bizim təcrübəmizə əsasən sizə deyə bilərəm ki, bəzən sülh danışıqları çox uzun sürür. Biz 28 il ərzində sülh danışıqları apardıq. Siz bunu təsəvvür edə bilirsiniz? 1992-ci ildən 2020-ci ilədək. Biz Qarabağ münaqişəsini döyüş meydanında həll etməsəydik, onda bu sülh danışıqları daha 28 il davam edəcəkdi", - deyə dövlətimizin başçısı vurğulayıb.



## "MİNSK QRUPU ARTIQ PENSİYAYA ÇIXIB VƏ FAKTİKİ OLARAQ MÖVCUD DEYİL"

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev fevralın 18-də Münxendə keçirilən "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasda çıxışı zamanı söyləyib.

Dövlətimizin başçısı vurğulayıb: "Minsk qrupu artıq pensiyaya çıxıb və faktiki olaraq mövcud deyil. Ola bilsin, yalnız kağız üzərində mövcuddur.

28 il ərzində heç bir nəticə verməmiş Minsk qrupunun sabiq həmsədrlərinin vəziyyətə təsir göstərmək üçün hələ də bəzi vasitələri var. Buna görə də bizim Birləşmiş Ştatlar, Rusiya və indi həm də Avropa İttifaqı tərəfindən təşkil edilən platformamız var".

Prezident İlham Əliyev qeyd edib ki, Fransa hökumətinin birtərəfli erməniperəst mövqeyi səbəbindən o, artıq orada yoxdur.

"Bu da aydındır, sən vasitəçisənsə, kiminsə tərəfini saxlaya bilməzsən. Siz kiminsə tərəfini saxlamağınızı nümayiş etdirə bilməzsiniz", - deyə dövlətimizin başçısı qeyd edib.



## BƏZİLƏRİ BÖLGƏMİZDƏ YARANMIŞ YENİ REALLIQLARLA BARIŞMAQ İSTƏMİRLƏR, AMMA MƏCBUR OLUB BARIŞACAQLAR

"İkinci Qarabağ müharibəsindən sonra bölgəmizdə də vəziyyət tamamilə dəyişdi. Yeni reallıqlar ortaya çıxdı və əlbəttə, biz hazır olmalıyıq ki, bu reallıqlarda öz mövqeyimizi daha da gücləndirək". Bu fikri Prezident İlham Əliyev Münxendə "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasdan sonra Azərbaycan televiziya kanallarına müsahibəsində söyləyib. Cənubi Qafqazda təhlükəsizliklə bağlı sualı cavablandıran dövlətimizin başçısı deyib: "Bugünkü panel müzakirəsi bir daha onu göstərdi ki, bəziləri bu reallıqlarla barışmaq istəmirlər, amma məcbur olub barışacaqlar. Çünki biz real dünyada yaşayırıq və bölgəmizdə gedən proseslər əlbəttə ki, yeni yanaşmaları tələb edir".

## "QARABAĞ ERMƏNİLƏRİ AZƏRBAYCAN VƏTƏNDAŞLARIDIR"

Bunu Azərbaycan Prezidenti İlham Əliyev "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasda çıxışında söyləyib.

Dövlətimizin başçısı deyib: "Qarabağ erməniləri Azərbaycan vətəndaşlarıdır, onlar azlıq təşkil edirlər. Azərbaycan çoxmillətli ölkədir. Azərbaycandakı bütün azlıqlar bərabər hüquq və imtiyazlara, o cümlədən mədəni, linqvistik və digər hüquqlara malikdirlər, onların təhlükəsizliyi də təmin edilib".

## "AZƏRBAYCAN TORPAQLARINI 30 İLƏ YAXIN İŞĞAL ALTINDA SAXLAYAN ERMƏNİSTANA QARŞI HEÇ BİR SANKSİYA TƏTBİQ EDİLMİRDİ"

Bunu Azərbaycan Prezidenti İlham Əliyev "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda keçirilən plenar iclasda çıxışında deyib.

"Bizim torpaqlımız 30 ilə yaxın erməni işğalı altında qalıb. Baş nazir Qaribaşvili qeyd etdi ki, 2008-ci ildə, Rusiya-Gürcüstan müharibəsindən sonra Rusiyaya qarşı heç bir sanksiyalar tətbiq edilməyib. Amma mən də deyə bilərəm ki, Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal edib, beynəlxalq hüququ pozub və 27 il ərzində BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməyib. Onlara qarşı da heç bir sanksiyalar da tətbiq edilməyib", - deyə dövlətimizin başçısı vurğulayıb.

Azərbaycan Prezidenti deyib: "Biz gözləyirdik ki, BMT Təhlükəsizlik Şurası öz qətnamələrinə hörmət edəcək. Lakin biz gördük ki, heç bir irəliləyiş yoxdur. Ümumi bir fikir yaranmışdı ki, bu münaqişə dondurulub. Beləliklə, biz sübut etdik ki, münaqişə dondurulmayıb. Biz döyüşməyə məcbur olduq. Ləyaqətimizi, ərazi bütövlüyümüzü, ədaləti bərpa etmək və BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmək üçün 3 min insanın həyatını qurban verməli olduq".

## SÜLH MÜQAVİLƏSİNDƏ QARABAĞ HAQQINDA HANSISA MÜDDƏANIN OLMASI QƏBULEDİLMƏZDİR

"Görüş yaxşı keçdi, məncə, konstruktiv keçdi. Bir çox məsələlər, o cümlədən Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanması üçün lazım olan şərtlər müzakirə olundu".

Bu barədə Prezident İlham Əliyev fevralın 18-də Münxendə televiziya kanallarına müsahibəsində bildirib. Dövlətimizin başçısı ABŞ-ın Dövlət katibi Antoni Blinken və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə birgə görüş haqqında sualı cavablandırarkən deyib: "Əlbəttə ki, mən öz mövqeyimi bir daha bildirdim. Əsas məsələ ondan ibarətdir ki, bu sülh müqaviləsi beynəlxalq norma və prinsiplər əsasında tərtib edilməlidir. Qarabağ haqqında hər hansı müddəanın olması qəbuledilməzdir.

Bu haqda da Azərbaycanın mövqeyi bildirildi. Biz üç gün bundan qabaq Ermənistandan bizim təkliflərimizə yeni cavab təklifləri aldıq. İndi onları incələyirik".

## NƏHAYƏT, CƏNUBİ QAFQAZDA ÜÇ ÖLKƏ ARASINDA HƏR HANSI BİR ƏMƏKDAŞLIQ BAŞLANA BİLƏR

"İlkin variantda görüşdə Ermənistan baş nazirinin iştirakı nəzərdə tutulmurdu. Çünki mənə verilən ilkin təklifdə onun adı yox idi". Bunu Prezident İlham Əliyev fevralın 18-də Münxendə televiziya kanallarına müsahibəsində deyib.

"Dünən axşam belə qərara gəldi ki, o da iştirak etsin. Hesab edirəm ki, bu, yaxşı haldır. Çünki nəhayət Cənubi Qafqazda üç ölkə arasında hər hansı bir əməkdaşlıq başlana bilər", - deyə dövlətimizin başçısı bildirib.

# ERMƏNİLƏRİN XALQIMIZA QARŞI TÖRƏTDİYİ SOYQIRIMILAR: XX ƏSRİN HOLOKOSTU, XATINI - XOCALI

*"Bu amansız və qəddar soyqırımı aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu".*

**Azərbaycanın ümummilli lideri Heydər Əliyev**

*"Xocalı faciəsi erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi idi".*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev**

Ermənistanın Azərbaycan xalqına qarşı törədilmiş terror aktlarının ən dəhşətlisi 26 fevral 1992-ci ildə bir gecədə 613 azərbaycanlı, o cümlədən 106 qadın və 63 uşağın vəhşicəsinə qətlə yetirildiyi Xocalı şəhərində baş vermişdir. Bu sıraya 20 noyabr Qarakənd faciəsi-terraktı, Meşəli, Cəmilli, Umudlu, Qaradağlı, Ağdaban, Ballıqaya, Bağanıs-Ayrım faciələri də daxildir. Həmçinin, Ermənistanın azərbaycanlı mülki əhalisinə qarşı törətdiyi terror aktlarında əsasən qadınlara, uşaqlara və qocalara qarşı snayper hücumları və ya yaxınlıqdakı çaylara partlayıcı yerləşdirilmiş oyuncaqların atılması üsulları üstünlük təşkil etmişdir.

Cəbhə və dövlət sərhədi yaxınlığında törədilmiş erməni terror aktlarının qurbanları arasında Ağdamdan 5 yaşlı oğlan, Tovuzdan 13 yaşlı qız və Füzulidən 2 yaşlı qız uşaqlarını qeyd etmək olar.

Ötən əsrin ən qanlı faciələrindən, qətliamlarından, soyqırımı aktlarından biri də Xocalı soyqırımı, Xocalı vəhşəti, Xocalı dəhşətidir. Holokostdan, Xatından sonra dünyada törədilən ən dəhşətli faciə, soyqırımı məhz Xocalı qətliamıdır.

Bəşəriyyətin gözü önündə - 1992-ci ilin soyuq qış gecəsində, fevralın 25-dən 26-na keçən gecədə Azərbaycanın, onun Qarabağının Xocalı adlı şəhəri yer üzündən silindi. 19-cu əsrin sonları, 20-ci əsrin əvvəllərindən təşkilatlanmış erməni caniləri, erməni terrorçuları, gözləri qandan doymayan erməni cinayətkar dəstələri havadarlarının köməyi ilə daha bir qanlı cinayətkarlıq əməlinə əl atdılar, Xocalı qətliamını törətdilər.

Bağanis Ayrım, Qaradağlı, Şuşa, Masis faciələrinə və digər qanlı cinayətkarlıq əməllərinə görə layiqli cəzalarını almayan erməni cinayətkarları və onların qanlı havadarları daha da azğınlaşaraq, 1992-ci ilin 26 fevral tarixində Xocalıda insanlıq dramı yaşatdılar.

Həm də təkcə Bağanıs Ayrımmı, təkcə Qarakəndmi, təkcə Qaradağlımı, təkcə Masis?! 20-ci ərsin əvvəllərində, xüsusilə, 1918-ci ilin fevral-mart aylarında yaşanan, yaşadılan faciələr, mart qırğınları, Şamaxıda, Göyçayda, İsmayıllıda, Qubada və Bakıda törədilən dəhşətlər necə olsun?... Onlar unudula, onlar yaddan çıxarıla bilərmi? 1918-ci il martın 31-də qandan bəslənmiş, gözlərini qan tutmuş, insanlıqdan çıxmış ermənilərin, daşnakların, onların qanlı havadarlarının Bakıda yaşatdıqları soyqırımı miqyasına, dəhşətlərinə görə insanlığın utancı, üzqarası deyilmi?!

Bəli, vaxtında hüquqi-siyasi qiymət verilmədiyi, bu dəhşətlərdə rolu olan qanlı cinayətkarlar, canilər - şaumyanlar, mikoyanlar məşhər ayağına çəkilmədiyi, haqlı cəzalarına çatdırılmadığı üçün üstündən 70 il keçəndən sonra Quqark, Masis, Bağanıs Ayrım, Qarakənd, Şuşa, Xocalı faciələri və digər faciələr yaşandı.

Bəli, Holokostun, Xatının, Naqasakinin, Xirosimanın, Serebrenitsanın və Xocalının... baş verməsində insanlıq özü də günahkar, məsuliyyətlidir.

Bəli, dünya ötən əsrin 40-cı illərində qanlı Hitler faşizmindən qurtula bildi, amma ondan da qəddar və daha amansız olan erməni faşizmindən xilas ola bilmədi. Əksinə, dünyanın "taleyi"ni həll edən bir çox Avropa, Qərb ölkələri antitürk siyasəti yeridərək, erməni faşizminə "yaşıl işıq" yandırdı. Həm özü, həm dünya, həm də insanlıq üçün silinməyəcək əbədi bir ləkə "qazandı".

Bəli, Hitler faşizmi qədər erməni faşizmi də dünya, insanlıq üçün böyük təhlükədir...

Və kimsə də bunun məsuliyyətindən qaça, yaxasını kənara çəkə bilməz və bilməyəcək!

* * * * *

**- Soyqırımı aktı.** 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə Azərbaycan tarixinin ən dəhşətli səhifələrindən biri olan Xocalı soyqırımı aktı baş vermişdir. Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozaraq keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərinə hücum etdi və dinc əhaliyə misli görünməmiş qəddarlıqla divan tutdu;

**- Soyqırımı Günü.** "Bu soyqırımı, eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir", - deyən Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı soyqırımı günü haqqında" qərar qəbul etdi;








**- Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti.** Ulu Öndər Heydər Əliyevin 25 fevral 1997-ci il tarixli Sərəncamı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədi ilə hər il fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikası ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilmişdir;

**- Faciə günü Xocalı şəhərini tərk edən əhali pusquya salındı və Naxçıvanlı, habelə Pircamal kəndləri yaxınlığında erməni hərbi postları tərəfindən ya atəşə tutularaq qətlə yetirildi, ya da əsir götürüldü.** Hücum başladıqdan sonra şəhərdə qalan 2500-ə yaxın əhali azərbaycanlıların nəzarətində olan ən yaxın məkana çatmaq məqsədilə şəhəri tərk etməyə cəhd etdilər. Əsasən qadın və uşaqlardan ibarət əhalinin qalan hissəsi dağlarda hərəkət edən zaman donvurma nəticəsində həlak oldular;

**- Acı faktlar.** Xocalı soyqırımı zamanı 106 qadın, 63 uşaq və 70 yaşlı insan olmaqla 613 nəfər qətlə yetirildi, 1275 sakin girov götürüldü, 150 nəfərin taleyi isə bu günədək naməlum qalıb. Şəhər yerlə-yeksan edildi. Həmin faciəvi gecə zamanı 487 nəfər Xocalı sakini ciddi şəkildə şikəst edildi və onlardan 76 nəfəri uşaqlardan ibarət idi. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini və 130 uşaq isə bir valideynini itirdi;

**- Xüsusi qəddarlıqla törədilmiş cinayətlər.** Qətlə yetirilən insanlardan 56 nəfəri xüsusi qəddarlıqla - diri-diri yandırılaraq, başının dərisi soyularaq, boynu vurularaq, gözləri çıxarılaraq, hamilə qadınların isə qarın boşluğuna süngü ilə vurularaq öldürüldü;





**- Xocalı şəhəri işğalın nəticəsində xarabalığa çevrilib.** İşğalın nəticəsində Xocalı şəhərində 105 sosial-məişət obyekti, 3200 fərdi yaşayış binası, 14 məktəb, 21 klub, 29 kitabxana, üç mədəniyyət evi və bir tarix-diyarşünaslıq muzeyi dağıdılıb. Şəhərdə XIV-XV əsrə aid türbələr, günbəzlər, məzarlar yerlə-yeksan olunub, qəbiristanlıq vandallara xas üsullarla dağıdılıb;

**- XX əsrin faciəsi olan Xocalı soyqırımı işğalçı və cinayətkar erməni siyasətinin nəticəsidir;**

**- Soyqırımı cinayəti.** "Soyqırımı" anlayışının hüquqi mənası BMT Baş Assambleyasının 9 dekabr 1948-ci il tarixli 260 A (III) saylı qətnaməsi ilə qəbul etdiyi "Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalar haqqında" Konvensiya ilə müəyyən edilmişdir və hər hansı milli, etnik, irqi və ya dini qrupların tam və ya qismən məhv edilməsi niyyəti ilə növbəti hərəkətləri bildirir: belə bir qrupun üzvlərinin qətlə yetirilməsi; belə bir qrupun üzvlərinə ciddi bədən xəsarətləri və əqli pozğunluq yetirilməsi; hər hansı belə bir qrup üçün qəsdən onun tam və ya qismən məhvinə hesablanmış həyat şəraitinin yaradılması; belə bir qrup arasında uşaq doğumunun qarşısının alınmasına hesablanmış tədbirlər; uşaqların zorakılıqla bir insan qrupundan digərinə verilməsi;

**- Soyqırımı cinayətini təşkil edən əməllərdən hər biri şüurlu və əvvəlcədən düşünülmüş olmuşdur;**

**- Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində aparılan sistemli işin nəticəsidir ki, Xocalı soyqırımı bir çox ölkələrdə qəbul olunan parlament aktlarında tanınmışdır.** Bosniya və Herseqovina, Kolumbiya, Çex Respublikası, Honduras, İordaniya, Meksika, Pakistan, Panama, Peru, Sudan, Cibuti, Qvatemala, Paraqvay, Sloveniya, Şotlandiya, İndoneziya və Əfqanıstanın qanunverici orqanları tərəfindən müvafiq parlament qətnamələri qəbul edilmişdir. Xocalı soyqırımı ABŞ-ın 30-dan çox ştatının qanunvericilik qurumları və qubernator proklamasiyaları səviyyəsində tanınıb. 2013-cü ilin fevral ayında Qahirədə keçirilən İƏT İslam Zirvə Konfransının 12-ci sessiyasında qəbul olunan Yekun Kommünikedə üzv dövlətlər Xocalı soyqırımının tanınması istiqamətində zəruri səylər göstərməyə çağırılırlar. Avropa İnsan Hüquqları Məhkəməsi 22 aprel 2010-cu il tarixli qərarında Xocalının azərbaycanlılardan ibarət mülki əhalisinin qırılmasını "müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətləndirilə bilən xüsusilə ağır əməllər" kimi müəyyən etmişdir;

**- Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın "Xocalıya Ədalət" kampaniyası.** "Xocalıya ədalət" beynəlxalq maarifləndirmə kampaniyasına Leyla xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci ildə start verilmişdir. Kampaniya bir çox ölkələrdə səmərəli şəkildə fəaliyyət göstərir. 100 minlərlə şəxs və 115 təşkilat kampaniyanın fəaliyyətini dəstəkləyir. Sosial şəbəkələrdə təşviqat, sərgilər, toplantılar, müsabiqələr, konfranslar, seminarlar və digər tədbirlər kampaniyanın məqsədlərinə çatmaq üçün istifadə olunan səmərəli vasitələri təşkil edir;

**- Xocalı şəhidlərinin qanı yerdə qalmadı.** 2020-ci il Vətən müharibəsində Azərbaycan Ordusu 30 il işğal altında qalan torpaqlarımızı azad etməklə yeni reallıq yaratdı, "dəmir yumruq" qalib gəldi. 44 günlük müharibədə misilsiz igidlik nümunələri göstərən qəhrəman ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Xocalı faciəsi qurbanlarının da qisasını aldı, şəhidlərimizin qanı yerdə qalmadı.

**"İQTİSADİYYAT"**

# Ziyad Səmədzadənin "Azərbaycan iqtisadiyyatı 100 ildə" çoxcildlik monoqrafiyasının təqdimatı keçirilib




















AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunda Akademik Ziyad Səmədzadənin "Azərbaycan iqtisadiyyatı 100 ildə" çoxcildlik monoqrafiyasının təqdimatı keçirilib.

İnstitutdan bildirilib ki, ilk olaraq Türkiyədəki zəlzələ qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra Tarix İnstitutunun baş direktoru, tarix elmləri doktoru, professor Kərim Şükürov çıxış edərək, "Azərbaycan iqtisadiyyatı 100 ildə" beşcildliyini Azərbaycan iqtisad elmi üçün böyük töhfə kimi dəyərləndirib.

Tədbirdə çıxış edən akademik Ziyad Səmədzadə bildirib ki, çoxcildliyin ərsəyə gəlməsində əsas məqsəd Ulu Öndər Heydər Əliyevin 1997-ci il yanvarın 31-də AMEA-nın həqiqi və müxbir üzvləri ilə görüşündə XX əsrdə və müstəqillik illərində Azərbaycanın inkişaf tarixinin yazılması ilə bağlı səsləndirdiyi fikirlər, təklif və tövsiyələr olub. Çoxcildliyin strukturu, məqsəd və vəzifələri müəyyən edilərkən Ulu Öndər Heydər Əliyevin XX əsrin başa çatması ilə əlaqədar Azərbaycan xalqına tarixi müraciəti baza kimi götürülüb.

Daha sonra alimlər İlqar Niftəliyev, Cəbi Bəhramov, Əsədulla Cəfərov, Hacı Həsənov, Mais Əmrahov, Müşfiq Atakişiyev, Məhiş Əhmədov öz çıxışlarında akademik Ziyad Səmədzadəni müasir Azərbaycan iqtisadiyyatının konseptual məsələlərinin araşdırıcılarından biri kimi xarakterizə edərək, alimin son əsərini də dövlətçiliyimizin iqtisadi əsaslarının möhkəmlənməsi işinə böyük töhfəsi kimi dəyərləndiriblər.

Qeyd edək ki, akademik Ziyad Səmədzadənin "Azərbaycan iqtisadiyyatı 100 ildə" beşcildlik fundamental monoqrafiyasında ölkə iqtisadiyatının 1918-ci ildən başlayaraq tarixi, əsas problemləri araşdırılır və təhlil edilir. Monoqrafiya müəllifin uzun illər gərgin əməyinin, müşahidələrinin, elmi tədqiqatlarının nəticəsidir.

Çoxcildlikdə respublika iqtisadiyyatının keçən əsrin 70-ci illərində yeni inkişaf mərhələsinə keçirilməsini şərtləndirən amillər, müstəqil Azərbaycanın iqtisadi təhlükəsizliyi, iqtisadiyyatının strukturunun şaxələndirilməsi, tarazlı inkişafı, ərzaq təhlükəsizliyinin, iqtisadi inkişafla demoqrafik inkişaf arasında qarşılıqlı əlaqə və asılılığın təmin edilməsi kimi taleyüklü əhəmiyyət kəsb edən məsələlərə müəllifin baxışları, tövsiyələri ən vacib metodoloji baza kimi müəyyənləşdirilib.

Hər cildin strukturu xronoloji-problem əsasında qurulub. Monoqrafiya zəngin arxiv sənədləri, mətbuat materialları, statistik məlumatlar əsasında yazılıb. I-IV cildlər son 100 ildə Azərbaycan iqtisadiyyatına, sonuncu V cild həmin dövr ərzində Qarabağın iqtisadiyyatına həsr olunub.

I cilddə AXC dövründə həyata keçirilən və yarımçıq qalan sosial-iqtisadi tədbirlər, Sovet Azərbaycanın ilk onilliklərində yeni bolşevik hakimiyyətinin həyata keçirdiyi iqtisadi islahatlar, Böyük Vətən müharibəsi illərində Bakı neftinin qələbədə rolu, ikinci Bakının yaradılması, Bakının silah-sursat istehsalı mərkəzinə, mühüm su və quru nəqliyyat qovşağına çevrilməsi, 1950-1970-ci illərdə Azərbaycanda xalq təsərrüfatının inkişaf səviyyəsi və sürəti, sənayenin inkişafını müəyyən edən amillər kimi məsələlər araşdırılıb.

II cilddə XX əsrin ikini yarısından Azərbaycanın müstəqilliyinin bərpasına qədər olan dövrdə respublikanın kənd təsərrüfatının inkişafında baş vermiş dəyişikliklər, ölkə iqtisadiyyatının maddi-texniki bazasının möhkəmləndirilməsi, əsaslı tikintinin və nəqliyyatın inkişafı, müstəqilliyin bərpasından sonra yeni iqtisadi konsepsiyanın hazırlanması və onun mahiyyəti kimi məsələlər araşdırılır.

III cilddə müstəqilliyin ilk illərində dərin iqtisadi-siyasi böhranın səbəbləri və nəticələri, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın dövlət müstəqilliyinin qorunması üçün müəyyən etdiyi strategiyanın əsas istiqamətləri, neft strategiyasının mahiyyəti, reallaşması və nəticələri, dövlətimizin pul-kredit siyasətinin formalaşması, ölkənin büdcə sisteminin qanunvericilik bazasının yaradılması, onun gəlir və xərclərinin strukturu, ölkənin xarici borclanma strategiyası, aqrar sektorda islahatların aparılması, nəqliyyat kompleksinin əsas inkişaf istiqamətləri, sənaye istehsalının tənəzzülünün dayandırılması və davamlı inkişafı kimi məsələlər araşdırılır.

IV cilddə Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə regionların inkişaf strategiyasının prioritet istiqamətləri, bu istiqamətdə proqramların həyata keçirilməsi, respublikanın enerji sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi, sahibkarlıq mühitində yeni imkanların yaradılması, əhaliyə dövlət xidmətlərinin göstərilməsində yeni dövlət institutlarının yaradılması (ASAN Xidmət), özünüməşğulluq proqramlarının həyata keçrilməsi, ev təsərrüfatının inkişaf dinamikası, təhsil və elm sahəsində aparılan islahatların ölkənin iqtisadi tələblərinə uyğunlaşıdırılması və digər məsələlər öz əksini tapıb.

V cilddə Azərbaycanın Qarabağ bölgəsinin iqtisadi inkişaf xüsusiyyətlərinə qısa tarixi baxış, Azərbaycan SSR-nin tərkibində DQMV-nin yaradılması və onun sosial-iqtisadi inkişaf uğurları, Ermənistanın Qarabağa və Şərqi Zəngəzura hərbi təcavüzünün bu bölgələr üçün ağır iqtisadi nəticələri, Ulu Öndər Heydər Əliyevin Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində yorulmaz fəaliyyəti, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusunun 2020-ci ildə 44 günlük müharibə nəticəsində Qarabağ və Şərqi Zəngəzurun erməni işğalçılarından azad edilməsindən sonra bu bölgələrin gələcək inkişaf perspektivlərinin müəyyən edilməsi, işğal nətiəsində dağıdılmış iqtisadi infrastrukturun yenidən bərpası, "Böyük Qayıdış" proqramı çərçivəsində həyata keçirilən sosial-iqtisadi layihələr, yeni quru və hava nəqliyyatı yollarının tikilməsi, Zəngəzur dəhlizinin regional və qlobal əhəmiyyəti, su və enerji sisteminin yenidən qurulması və digər məsələlər öz əksini tapıb.

# Ortamüddətli Xərclər Çərçivəsi yeni sektorlara tətbiq olunacaq

"Ortamüddətli Xərclər Çərçivəsinin (OMXÇ) yeni sektorlara tətbiqi nəzərdə tutulur".

Bu barədə Maliyyə naziri Samir Şərifov "Təhsil sektorunda Ortamüddətli Xərclər Çərçivəsinin tətbiqi və nəticəəsaslı büdcə mexanizminə keçid" mövzusunda seminarda deyib.

Nazir bildirib ki, cari ildən pilot sektorlarda nəticəəsaslı



büdcəyə keçid prosesinin tamamlanması və proqram əsaslı büdcənin təkmilləşdirilərək tam tətbiqi, eyni zamanda islahat prosesinə digər sektorların da cəlb olunması nəzərdə tutulur. Bununla əlaqədar cari ildən başlayaraq yeni cəlb olunacaq sektorlarda OMÇX-nin tətbiqi və nəticəəsaslı büdcəyə keçid işlərinə başlanılması planlaşdırılır. Yeni sektorlar sosial təminat, mədəniyyət və incəsənət, turizm, gənclər və idman sahələrini əhatə edəcək.

# "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" qaz yatağı layihələrindən yüksək gəlir əldə edilib

"Azəri-Çıraq-Günəşli və "Şahdəniz" yataqlarından 569 milyon tona yaxın neft, 40,6 milyon ton kondensat, təxminən 390 milyard kubmetr qaz çıxarılıb".

Bunu Energetika naziri Pərviz Şahbazov Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş "Ümummilli Lider Heydər Əliyev Azərbaycanın müstəqil energetika siyasətinin müəllifidir" adlı tədbirdə çıxışı zamanı qeyd edib.

Nazir bildirib ki, "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun işlənməsi və "Şahdəniz" qaz yatağı layihələrindən 170 milyard ABŞ dolları məbləğində gəlir əldə edilib.

# Cənub Qaz Dəhlizi ilə Avropaya 21 milyard kubmetr qaz tədarük olunub

"Cənub Qaz Dəhlizi ilə iki ildən artıqdır ki, Avropaya 21 milyard kubmetr qaz tədarük edilib".

Bunu Energetika naziri Pərviz Şahbazov Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş tədbirdə bildirib.




Nazir əlavə edib ki, ölkəmiz neft təchizatçısı kimi Xəzər dənizi ilə Aralıq dənizi, qaz təchizatçısı kimi Xəzər dənizi ilə Adriatik dənizi arasında yaratdığı enerji bağlantılarını daha da şaxələndirir.

Onun sözlərinə görə, yaşıl enerji tədarükçüsü kimi Xəzər dənizi ilə Qara dəniz arasında enerji bağlantısı qurmaq yaşıl enerji gündəliyinin prioritetləri sırasındadır. 25 QVt-dək yaşıl enerji istehsalı ilə bağlı layihələr orta və uzunmüddətli dövrdə bərpa olunan enerji və yaşıl hidrogenin təchizatçısı kimi ölkəmizin mövqeyini gücləndirəcək.

# Azərbaycan və Türkiyənin yüksək günəş enerjisi potensialı var

Azərbaycan-Türkiyə Enerji Forumu çərçivəsində fəaliyyət göstərən "Bərpa olunan enerjidən istifadə və enerji səmərəliliyi" üzrə İşçi Qrupun təşəbbüsü ilə "Günəş elektrik stansiyaları üçün ərazilərin müəyyənləşdirilməsi" mövzusunda onlayn seminar keçirilib. Seminarın açılış hissəsində Türkiyənin Enerji və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı Hasan Akata və Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin (AREA) şöbə müdirinin müavini Cəbrayıl Əliyev çıxış edərək, Türkiyədə baş vermiş zəlzələyə görə dərin təəssüf hissi keçirdiklərini ifadə ediblər.



AREA-dan bildirilib ki, onlayn seminarda günəş elektrik stansiyaları üçün ərazilərin müəyyənləşdirilməsinin texniki və inzibati təfərrüatları barədə qarşı tərəfin təqdimatı dinlənilib.

Seminarda, həmçinin qarşılıqlı əməkdaşlıq istiqamətləri müzakirə edilib, iştirakçıların sualları cavablandırılıb.

Seminarda Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, nazirliyin tabeliyindəki Enerji Məsələlərini Tənzimləmə Agentliyi (AERA), "Azərenerji" ASC, "Azərişıq" ASC-nin əməkdaşları, həmçinin türkiyəli mütəxəssislər iştirak ediblər.

# RƏQƏMSAL İQTİSADİYYATIN LOKOMOTİVİ: YENİ NƏSİL ŞƏBƏKƏLƏR - 5G

> *“Rəqəmsal iqtisadiyyat ölkəmizin davamlı inkişaf strategiyasının əsas prioritetidir.”*
>
> ***İlham Əliyev***
> ***Azərbacan Respublikasının Prezidenti***



***Məmmədov Əflatun Məsim oğlu***
***Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin Elmi Tədqiqat İnstitutunun direktorunun I müavini, İnternet və Yüksək Texnologiyalar üzrə ekspert***

***5G - yeni nəsil şəbəkə standartı beynəlxalq aləmdə niyə bu qədər qorxu və ajiotaj yaratdı?***

Məlum olduğu kimi, dünya əhalisi vaxtaşırı 5G - beşinci nəsil mobil rabitə antenalarının quraşdırılmasına qarşı çıxırdı, hətta bu antenalardan bir neçəsi İngiltərədə yandırılmışdı.

Bu gün 5G əleyhinə neqativ hisslər bütün dünyada, o cümlədən ölkəmizdə də müşahidə olunur. Bir tərəfdən də dünyada COVID-19 virusuna yoluxmaların 5G ilə əlaqəli olduğu iddia olunur. Digər tərəfdən də 5G tezlik spektrini satmaqla böyük gəlirlər əldə etməkdə iddialı görünən dövlət qurumları bir an öncə bu standartı tətbiq etməyə öz açıq maraqlarını gizlətmirlər.

Məlumat üçün onu da qeyd etmək lazımdır ki, 5G standartı özündən əvvəlki (1G,2G,3G,4G) nəsil şəbəkələrin inkişafı ilə əlaqədar olaraq, onların texnoloji baxımdan təkamülü və təbii davamıdır. Burada birdən başlayaraq beşə kimi mobil şəbəkə texnologiyaları mobil telefon operatorları tərəfindən texniki-tərəqqi yolu ilə irəliləyərək, dünyada yeni gündəm yaratmışdır.

**5G nə deməkdir?**

“G” hərfi ingiliscə “generation”, Azərbaycan dilində isə “nəsil” mənasını daşıyır. Öncə qeyd edək ki, 1G və 2G standartları, əsasən ilkin olaraq səs və mesaj (məlumat) verilişi və qəbulu ilə məhdud sayda xidmətləri əhatə edirdi. Daha sonra isə 3G, 4G və 5G video və daha çox genişzolaqlı (“data”) multimedia məlumatlarının ötürülməsini - sürətli və dayanıqlı internet xidmətlərini əhatə edərək reallaşdırıldı.

Çoxları yüksək tezlikli millimetr uzunluğunda elektromaqnit şüalanmalarını insan həyatı üçün təhlükəli hesab edirlər. Əslində isə gündəlik istifadə edilən qızdırıcı mikrodalğalı sobalarda belə 5G-yə nəzərən daha yüksək tezlikli elektromaqnit dalğalarından istifadə olunduğunu unutmaq olmaz.

***5G yeni nəsil şəbəkələrdə yüksək tezlikdən istifadə etməklə ötürülən məlumatların həcmini artırmağa, baza stansiyalarının və antenaların ölçülərini əhəmiyyətli dərəcədə azaltmağa imkan verir. Bu baza stansiyaları şəhər işıqlandırma dirəklərində, evlərin çardaqlarında, magistral yollarda quraşdırılmış konsollarda, eyni zamanda bunun üçün nəzərdə tutulmuş ayrıca dirəklərdə yerləşdirilə bilirlər.***




5G standartı ideyası əhalisi daha sıx məskunlaşan Çində yaranmışdır. Belə ki, çox sayda insanın 4G-dən istifadə edərək, stadionlarda, qatar stansiyaları, metro və əhalinin gur məskunlaşdığı yerlərdə eyni vaxtda sürətli İnternetdən istifadə etmək, video məlumatları yaymaq və izləmək kimi əlaqələrində kəsinti və fasilələrin yaşanması bu standartın tətbiqini zəruri etdi.

Ölkəmizdə də Avropa oyunları zamanı bənzər problemlər yaşanmasın deyə oyun məkanlarında onlarla 3G və 4G mobil baza stansiyaları əvvəlcədən planlı şəkildə yerləşdirilmişdi.

Çində isə əhali sıx olduğundan bütün yaşayış məkanlarında 4G baza stansiyalarının sayını artırmaq iqtisadi cəhətdən əlverişli deyildi və bu problemi həll etmək üçün daha çox məlumatı yüksək sürətlə ötürən yeni bir standart tələb olunurdu. Bu məsələni həll etmək üçün Çində bir baza stansiyasında daha çox rabitə kanalı yaratmaq üçün tezliyi artırdılar və beləliklə də 5G texnologiyasında əvvəlki nəsillərə nisbətən sürətin daha çox olması əsas üstün cəhət sayılmadı, əsas üstünlüyü rabitə kanallarının çoxluğu və hər kvadrat kilometrə düşən istifadəçi sıxlığının texniki-iqtisadi səmərəlilik baxımından yüksək olması oldu.

Tezlik artıqca baza stansiyaları arasında məsafə də əvvəlki nəsildəki 30-40 km-dən təqribən 200-300 metrə qədər azaldı və beləliklə 5G şəbəkə modelində daha çoxlu bir-birinə yaxın baza stansiyaları qurmaq tələb olundu.

**5G və insan sağlamlığı**

5G rəqəmsal iqtisadiyyatın inkişafı üçün ən mühüm yüksək texnoloji vasitə olmaqla bərabər, fokuslayıcı şüalanma mənbəyi kimi də insan orqanizminə mənfi təsirlərə və bu təsirlərdən yaranacaq fəsadlara sahibdir. Hələ tam öyrənilməsə də, bəzi alimlər və mütəxəssislər, o cümlədən 5G texnologiyası üzrə istehsalçı şirkətlərin rəqibləri bu texnologiyanın tətbiqinin koronavirusun inkişafına şərait yaratdığını deyərək, “qara piar” kompaniyalarını hələ də aparırlar.

Odur ki, arayış üçün bir daha bildiririk ki, 5G standartı da daxil olmaqla mobil rabitədə millimetr uzunluğunda elektromaqnit şüalanmadan istifadə edilir. Rentgen və ya qamma radiasiyasından fərqli olaraq millimetr uzunluğunda 5G elektromaqnit dalğaları maddəni ionlaşdırmağa, yəni onun kimyəvi tərkibini dəyişdirməyə, məhv etməyə kifayət qədər enerji tələb edir ki, bu da ayrıca araşdırma mövzusudur.

Müxtəlif tezlikli radio dalğalarının insan orqanizminə təsiri 1960-cı illərdən bəri hələ də tədqiq edilir. Dünyada qəbul edilən qaydalara əsasən istənilən ölkəyə qanuni şəkildə idxal olunan hər hansı bir İT avadanlığını bəyan etmək üçün istehsalçı ölkənin mənşə sertifikatı, sanitar və uyğunluq standartı tələblərinə uyğun həmin avadanlığın kütləvi istifadəsinə dair aidiyyatı dövlət qurumlarından xüsusi icazə alınır. Belə olan halda geniş istifadəçi tamamilə dövlət tənzimləməsinin daşıdığı məsuliyyəti diqqətə almalı, buna məsul dövlət qurumu da bunların fərqində olmalıdır.

Bu günə kimi mobil rabitə, “Wi Max”, “Wi-Fi”, “Bluetooth” və digər radio rabitə vasitələrinin insan sağlamlığına zərərli təsiri barədə çoxlu sayda ziddiyyətli məlumatlar var. Ümumidünya Səhiyyə Təşkilatı (ÜST) isə bu günə qədər yalnız termik qızmaya məruz qalma növünü tanıyır (məsələn, uzun müddət mobil telefon ilə danışan fərdin qulağı istilikdən qızır) və onlar ciddi təhlükə hesab edilmir.

***“5G və koronavirusla bağlı qorxulara gəldikdə isə, insanlar bu texnologiyaya dair öz şübhələrini gizlətmirlər. Amma bu tezlik diapazonlarının əvvəlki nəsillərin diapazonundan daha zərərli olduğuna dair də heç bir dəlil, sübut mövcud deyildir. Tarixən həmişə hər hansı yeni texnologiya insanlarda narahatlıq yaratmışdır. Elə bu səbdən də 5G texnologiyasının tətbiqi dövründə pandemiya fenomeni bəzi əhali qrupları arasında iğtişaşlar üçün katalizator rolunu oynadı.***

Ancaq bunun üçün narahatlıq yaradacaq əsl səbəblər hələ də geniş ictimayətə bəlli deyildir. 5G-də elektromaqnit radiasiya, yayılan millimetr uzunluğunda elektromaqnit dalğalarının COVID-19 virusunun yayılması ilə əlaqəli orqanik molekullara təsiri də ayrıca dərindən tədqiq olunmalı mövzulardandır.

Digər tərəfdən, yer kürəsinin əhalisi artdıqca qidaya olan tələbat da artığından insanlar qida məhsullarını süni yolla mövcud maddələrin molekulyar quruluşunu dəyişdirməklə əldə etmək imkanlarına sahibdirlər. Bu qəbildən elmi fəaliyyətlər bir tərəfdən insanların həyatı üçün vacib mikrobioloji mühiti inkişaf etdirsə də, digər tərəfdən o mühitə ciddi zərər vurur. Xüsusi ilə geni dəyişdirilmiş qida məhsullarının insan orqanizminə zərərli təsiri inkişaf etmiş ölkələrdə daha çox yayqındır.

*(davamı gələn sayımızda)*

# “Azertexnolayn” ABŞ-a məhsul ixracına başlayıb

İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkının rezidenti “Azertexnolayn” MMC-nin ixrac coğrafiyası genişlənir.



Agentlikdən verilən məlumata görə, şirkət tərəfindən ilk dəfə olaraq Amerika Birləşmiş Ştatlarına (Miçiqan ştatına) aqrotexnikalar üçün ehtiyat hissələrinin (yedək parça) ixracı həyata keçirilib. Bu ölkəyə ilkin mərhələdə 36,3 ton məhsul göndərilib.

Qeyd edək ki, "Azertexnolayn" MMC 2013-cü ildə Sumqayıt Kimya Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb və Parkın ərazisində müxtəlif diametrli polad boruların, yüksək təzyiqə davamlı hidrotexniki avadanlıqların, xüsusi təyinatlı polietilen boruların istehsalını həyata keçirir. Hazırda müəssisədə 60-dan çox çeşiddə məhsul istehsal olunur.

Müəssisənin məhsulları daxili bazara satılmaqla yanaşı, dünyanın 20-dən çox ölkəsinə ixrac edilir.

# Azərbaycan Türkiyənin zəlzələ bölgəsinə 25 milyon manata yaxın maddi yardım edib

Bu günə qədər (21 fevral 2023-cü il) Azərbaycandan Türkiyəyə zəlzələnin təsirlərinin aradan qaldırılmasına dəstək üçün göndərilən maddi yardımın həcmi açıqlanıb. Bu barədə Xarici İşlər Nazirliyi sosial şəbəkə hesabında paylaşım edib. Qeyd olunub ki, fevralın 21-dək hökumət, dövlət qurumları, hüquqi və fiziki şəxslər tərəfindən Türkiyəyə 24 900 000 manat maddi yardım göndərilib.



# Sənaye məhsulunun 74,1 faizi mədənçıxarma sektorunda istehsal edilib



Bu ilin yanvar ayında neft-qaz sektorunda məhsul istehsalı 4,9 faiz azalıb, sənayenin qeyri-neft-qaz sektorunda isə 2 faiz artıb. Dövlət Statistika Komitəsindən bildirilib ki, sənaye məhsulunun 74,1 faizi mədənçıxarma, 20,5 faizi emal, 4,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,5 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub.

# Neft-qaz sektorunda 4,7 milyard manatlıq ÜDM istehsal olunub

Ümumi daxili məhsul (ÜDM) neft-qaz sektorunda cari ilin yanvar ayında əvvəlki ilin müvafiq dövrünə nisbətən 95,4 faiz artaraq, 4 milyard 761,2 milyon manat olub.

Dövlət Statistika Komitəsindən bildirilib ki, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 4,6 faiz azalıb.




# Artıq ödənilmiş vergilərin qaytarılması üçün yeni mexanizm hazırlanıb

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti vergiödəyicilərinin dövlət büdcəsinə artıq ödənilmiş məbləğlərinin qaytarılması üçün yeni mexanizm hazırlayıb. İxrac fəaliyyəti ilə məşğul olan vergiödəyicilərinin artıq ödəmə məbləğləri nəzarət tədbirlərinə məruz qalmadan çevik şəkildə qaytarılacaq.

Dövlət Vergi Xidmətindən bildirilib ki, yeni mexanizmin ilkin olaraq ixrac fəaliyyəti göstərən vergiödəyicilərini əhatə etməsi, sonrakı mərhələlərdə digər vergiödəyicilərinə də şamil olunması nəzərdə tutulur. Artıq ödənilmiş məbləğlərin çevik qaydada qaytarılması ixrac fəaliyyəti ilə məşğul olan sahibkarların maliyyə resurslarının likvidliyinin artırılmasına şərait yaradacaq, eyni zamanda onların inzibati işlərə vaxt itkisinin qarşısını alacaq.

Artıq ödənilmiş vergilərin avtomatlaşdırılmış qaydada qaytarılması mexanizminə əsasən, vergi orqanı tərəfindən belə məbləğlər müəyyən edilərək qaytarılması məqsədəmüvafiq hesab olunan məbləğlər seçiləcək və sistemdə təsdiq əməliyyatı yerinə yetiriləcək.

Vergi orqanının təsdiqi nəticəsində ödəyicinin elektron kabinetində tərtib edilmiş ərizə məlumatları avtomatik əks olunacaq və vergiödəyicisinə bildiriş göndəriləcək. Ərizə vergiödəyicisi tərəfindən təsdiq, rədd və ya düzəliş (məbləğin azalması, hesabın dəyişdirilməsi) edilə bilər. Ərizə vergiödəyicisi tərəfindən təsdiqləndikdə, müəyyən edilmiş müddət ərzində icra olunması üçün vergi orqanına veriləcək və müvafiq rəy tərtib edilərək aidiyyəti üzrə göndəriləcək. Artıq ödənilmiş vergilərin qaytarılması üzrə vergiödəyicilərinə münasibətdə müəyyən şərtlər mövcuddur.

Digər vergiödəyiciləri üzrə artıq ödənilmiş vergilərin qaytarılması müvafiq qaydalarda nəzərdə tutulmuş müddətlər ərzində həyata keçirilir.

Vergiödəyiciləri tərəfindən artıq ödənilmiş vəsaitlərin büdcədən qaytarılması ilə bağlı statistik məlumatların Dövlət Vergi Xidmətinin rəsmi internet səhifəsində onlayn izlənilməsi mümkündür.

# BÖYÜK QAYIDIŞ: QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR QURUCULUQ VƏ DİRÇƏLİŞ YOLUNDA

*(əvvəli ötən sayımızda)*

Geri qayıdan əhaliyə dəstək məqsədilə xüsusi qaynar xəttin yaradılması və onların adaptasiyası ilə bağlı tədbirlərin daha səmərəli həyata keçirilməsi üçün müvafiq dövlət orqanları əməkdaşlarının peşəkar təlimlərə cəlb olunması, əhalinin yeni yaşayış şəraitinə adaptasiya olunması üçün reinteqrasiya tədbirlərinin təşkili, yaşayış məntəqələri üzrə qayıdışı dəqiqləşdirilmiş şəxslərin məşğulluğunun təmin edilməsi üçün aktiv məşğulluq tədbirlərinin həyata keçirilməsi, ərazilərdə işçi qüvvəsinə tələbatın müəyyən edilməsi, icma resurs mərkəzlərinin və ailə mərkəzlərinin yaradılması da qarşıya qoyulan vəzifələrdir.

Bütövlükdə, məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərdəki yaşayış məntəqələrinə qayıdışı çərçivəsində yaşayış məntəqələrində dayanıqlı icmalar yaradılacaq və onlar ölkənin sosial-iqtisadi strukturuna inteqrasiya olunacaqlar.

Artıq bu sahədə müsbət təcrübə var. Belə ki, Ağalı kəndinin bərpası ilə yanaşı, keçmiş köçkünlərin qayıdışı dayanıqlı icmaların yaradılması ilə də bağlı mükəmməl təcrübədir. Düşmən tərəfindən dağıdılmış Zəngilanın Ağalı kəndinin sakinləri bir vaxtlar ölkənin müxtəlif rayonlarında məskunlaşmışdılar. İndi isə onlar öz doğma yurdlarında vahid kənd, bütöv icma şəklində yaşayırlar. Həmçinin kəndə yaradılan müxtəlif xidmət sahələri nəticəsində Ağalının respublikamızın sosial-iqtisadi strukturuna inteqrasiyası da baş tutub. Bütün bunlar onu deməyə əsas verir ki, bu nümunə hazırda bərpası davam edən digər şəhər və kəndlərimizdə də uğurla tətbiq olunacaq.

**4. Ərazilərin inkişafına və reinteqrasiyasına dəstək göstərən strateji əhəmiyyətli və əhatəli infrastrukturun qurulması**

Sosial-iqtisadi inkişafı və yüksəlişi şərtləndirən əsas amillərdən biri hər bir sahə üzrə mükəmməl infrastrukturun yaradılmasıdır. Cənab Prezident İlham Əliyev davamlı yüksəlişin, tərəqqinin yolunu digər amillərlə yanaşı, infrastrukturun müasirləşməsində, bu sahədə beynəlxalq standartların tətbiqində görür. Təsadüfi deyil ki, 2004-cü ildən sonra regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramları təsdiq olunarkən qarşıya qoyulan prioritet vəzifələrdən biri infrastrukturun bərpası və yeniləşdirilməsi olmuşdur.

Bu amil əsas götürülməklə, işğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası, dayanıqlı inkişafının və əhalinin yüksək həyat səviyyəsinin təmin olunması üçün yerli, başqa cür desək, şəhər, kənd və qəsəbə əhəmiyyətli olması ilə yanaşı, strateji, yaxud dövlət əhəmiyyətli infrastrukturun yaradılması xüsusilə böyük önəm daşıyır və diqqət mərkəzində saxlanılır. Azad edilmiş torpaqlarımızda layihələrin ilk olaraq məhz bu istiqamətdə həyata keçirilməsinə başlanılmışdır.

Bu yerdə onu da xatırlamaq yerinə düşər ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev azad olunmuş ərazilərin bərpası ilə bağlı göstərişlərini hələ Vətən müharibəsinin davam etdiyi günlərdə vermiş, ilk olaraq azad olunmuş Suqovuşana aparan yolların bərpasına başlanılmışdır. Çünki qayıdışın birinci addımı yoldur. Yol həm də inkişaf, yüksəliş və rifah deməkdir.

Qələbə ilə başa vurduğumuz müharibədən dərhal sonra, 2020-ci ilin noyabr ayından işğaldan azad edilmiş ərazilərdə hava limanlarının, avtomobil və dəmir yollarının tikintisi işlərinə, enerji infrastrukturunun yaradılmasına start verildi.

2020-ci il noyabrın 16-da təməli qoyulan Zəfər yolu 2022-ci il noyabrın 7-də, 2020-ci ilin oktyabrından yenidən qurulmasına başlanılan Tərtər-Çaylı-Suqovuşan-Talış avtomobil yolu isə 2021-ci il oktyabrın 3-də Prezident İlham Əliyevin iştirakı ilə istismara verildi.

2021-ci il oktyabr ayının 26-da Füzuli Beynəlxalq Hava Limanı, 2022-ci il oktyabr ayının 20-də Zəngilan Beynəlxalq Hava Limanı istifadəyə verilmişdir.

Qısa müddətdə, yəni Vətən müharibəsinin başa çatmasından sonra ötən bircə il ərzində bu layihələrin icra olunaraq, başa çatdırılması Azərbaycan dövlətinin qətiyyətinin təcəssümünə çevrildi. Ən əsası bütün bunlar azad edilmiş ərazilərin yenidən qurulması ilə bağlı güclü siyasi iradənin olmasının göstəricisi oldu. Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlarımıza mütəmadi səfərləri də göstərir ki, dövlət başçısı bu məsələni xüsusi diqqət və nəzarətində saxlayır. Xüsusilə vurğulamaq lazımdır ki, bütün bu nəhəng layihələrin hər birini Azərbaycan öz hesabına reallaşdırdı ki, bu da bir daha dövlətimizin mükəmməl maliyyə imkanlarının göstəricisinə çevrildi.

*Hazırda Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Əhmədbəyli-Füzuli-Şuşa, Şükürbəyli-Cəbrayıl-Hadrut, Talış-Tap Qaraqoyunlu-Qaşaltı sanatoriyası, Bərdə-Ağdam, Qubadlı-Eyvazlı, Qubadlı-Mahmudlu-Yazdüzü-Ermənistan sərhədi, Hadrut-Tuğ-Azıx mağarası, Xudafərin-Qubadlı-Laçın, Ağdam-Füzuli, Ağdam-Hindarx-Ağcabədi yollarının tikintisi davam edir.*

İşğldan azad edilmiş ərazilərimizin yol-nəqliyyat infrastrukturunun yenidən qurulması yalnız avtomobil yollarının inşası ilə yekunlaşmır. Bu sahədə həyata keçirilən layihələrin bir qismini də regionda dəmir yolu xətlərinin bərpası və yeni xətlərin çəkilişi təşkil edir. Dəmir yolu ilə yüklərin daşınması iqtisadi baxımdan daha sərfəlidir. Xüsusən logistikanın ucuzlaşdırılması baxımından dəmir yolları şəbəkəsinin yaradılması və köhnə yolların yenidən işlək vəziyyətə gətirilməsinin ciddi əhəmiyyəti var.

2026-cı ilədək dəmir yolu infrastrukturunun təmir-bərpası, yenidən qurulması, habelə yeni dəmir yolu xətlərinin stansiyaların tikintisi ilə bağlı mühüm layihələr həyata keçiriləcək. Hazırda isə Bərdə-Ağdam və Horadiz-Ağbənd dəmir yolu xətlərinin tikintisi davam edir. Horadiz-Ağbənd dəmir yolu xətti azad olunmuş ərazilərimizdə həyata keçirilən ən iri yol-nəqliyyat layihələrindəndir. Ümumi uzunluğu 100 kilometr olan bu dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək.

Bütövlükdə, 2026-cı ilədək olan dövrdə dəmir yolu infrastrukturunun təmir-bərpası, yenidən qurulması, habelə yeni dəmir yolu xətlərinin stansiyaların tikintisi ilə bağlı qarşıya qoyulmuş vəzifələrin 65 faizinin yerinə yetirilməsi nəzərdə tutulur.

Ümumiyyətlə, İkinci Qarabağ müharibəsində qazanılan möhtəşəm Qələbə Azərbaycanda yol-nəqliyyat sahəsində qarşıya qoyulmuş vəzifələri də yenilədi. Bunu Dövlət Proqramı çərçivəsində yol-nəqliyyat infrastrukturu ilə bağlı qarşıya qoyulmuş digər hədəflər də təsdiq edir. 2026-cı ilə qədər olan dövrdə azad edilmiş ərazilərdə 97 yaşayış məntəqəsində avtomobil nəqliyyatının texniki təmir sahələri, avtovağzallar (avtostansiyalar) və taksi dayanacaqlarının yerlərinin müəyyən edilməsi, tikintisi həyata keçiriləcək, müntəzəm beynəlxalq, şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili) sərnişin daşımaları təşkil ediləcək.

Hava limanlarına gəldikdə azad edilmiş ərazilərdə üçüncü hava limanı Laçında inşa olunur. Bu hava limanının təməli 2021-ci il avqustun 16-da qoyulmuşdur və 2024-cü ildə istifadəyə verilməsi nəzərdə tutulur.

Azad olunmuş ərazilərimizin strateji infrastrukturunun bərpasının bir istiqamətini elektrik enerjisi ilə təminat təşkil edir. Xatırladım, işğal dövründə Qarabağ və ətraf rayonlar Ermənistan tərəfindən dağıdılmış və ya talan olunmuşdur. Sovetlər dönəmində bu ərazilərdə 10 elektrik şəbəkə rayonu (Şuşa, Xocalı, Xocavənd, Laçın, Qubadlı, Cəbrayıl, Zəngilan, Füzuli, Kəlbəcər və Ağdam) üzrə ümumi gücü 858,6 MVA olan 20 yarımstansiya mövcud olmuşdur. Həmin ərazilərdə uzunluğu 81 km olan 330 kV-luq, 690 km olan 110 kV-luq və 615 km olan 35 kV-luq 3 yüksək gərginlikli elektrik veriliş xətti, eləcə də uzunluğu 6197 km olan 10 kV-luq və 8865 km olan 0,4 kV-luq elektrik veriliş xətləri və ümumi gücü 245.7 MVA olan 2435 ədəd transformator var idi. İndi bunların heç biri yoxdur, işğalçı Ermənistan tərəfindən hamısı dağıdılıb.

Torpaqlarımızın işğaldan azad edilməsindən sonra bu ərazilərin yüksəkgərginlikli elektrik enerjisi ilə təchizatı üçün ötürücü şəbəkənin qurulması istiqamətində 110/35/10 kV-luq "Şuşa", "Füzuli", "Şükürbəyli", "Kəlbəcər", "Cəbrayıl", "Zəngilan", "Qubadlı", "Ağdam-1", "Ağdam-2", "Qorçu" yarımstansiyaları inşa olunub. Bu yarımstansiyaların hər biri yerləşdikləri rayonu dayanıqlı elektrik enerjisi ilə təchiz edir. Ağdamda inşa olunan Qarabağ Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzi isə Qarabağ regionunun elektrik təchizatının mərkəzi dispetçer sisteminə inteqrasiyasını təmin edir.

***Yarımstansiyaların arasında elektrik verilişi xətlərinin çəkilişi də başa çatdırılıb. Belə ki, 110 kV-luq "Şükürbəyli-Şuşa", "Şükürbəyli" yarımstansiyasına 110 kV-luq əlavə xəttin çəkilişi, 110 kV-luq "Daşkəsən-Kəlbəcər", 110 kV-luq "Şükürbəyli-Cəbrayıl", 110 kV-luq "Qubadlı-Zəngilan", 110 kV-luq "Xındırıstan-Ağdam-1-Ağdam-2", 110 kV-luq "Cəbrayıl-Qubadlı", "Güləbird-Qubadlı", 110 kV-luq "Güləbird-Laçın Şəhər", və 110 kV-luq "Kəlbəcər-Qorçu" elektrik verilişi xətləri çəkilib.***



2026-cı ilə qədər 1 ədəd 500 kV və 1 ədəd 330 kV-luq, 10 ədəd 110 kV-luq yarımstansiyaların, 110 km-lik 500 kV, 222 km uzunluğunda 330 kV-luq və 451 km-lik 110 kV-luq elektrik verilişi xətlərinin çəkilişi nəzərdə tutulur.

Bununla yanaşı, Cəbrayıl enerji qovşağının yaradılması və Naxçıvan Muxtar Respublikasının ölkənin elektrik enerjisi şəbəkəsinə inteqrasiyası ilə bağlı şəbəkənin qurulması üçün 1 ədəd çevirici və 2 ədəd 330 kV-luq yarımstansiyanın qurulması, 2 ədəd 330 kV-luq yarımstansiyanın yenidən qurulması, 270 km-lik 1 ədəd 500 kV, 517 km-lik 330 kV və 64 km-lik 110 kV elektrik verilişi xətlərinin qurulması planlaşdırılır.

Ərazilərin su təchizatı magistral sisteminin qurulması ilə bağlı 2023-cü il ərzində meliorasiya və su təsərrüfatı obyektlərinin texniki vəziyyəti qiymətləndirilərək, elektron kadastr məlumatı və xəritəsi hazırlanacaq, Suqovuşan su anbarı 5,2 km uzunluğunda magistral kanalla birlikdə, Xaçınçay su anbarı isə 7 km uzunluğunda kanalla birlikdə təmir və bərpa ediləcək, Tərtərçay Sol Sahil kanalı yenidən qurulacaq. Həmçinin Aşağı Köndələnçay, Köndələnçay-1 və Köndələnçay- 2 su anbarları da təmir və bərpa olunacaq. Suqovuşan hidroqovşağının təmirindən sonra 100 min hektar, Tərtərçay Sol Sahil kanalının yenidən qurulmasından sonra 29,6 min hektar, Xaçınçay su anbarının bərpasından sonra 7 min hektara yaxın, Aşağı Köndələnçay, Köndələnçay-1 və Köndələnçay-2 su anbarlarının təmirindən sonra 6,2 min hektar torpaq sahəsinin suvarma suyu ilə təmini yaxşılaşacaq.

***Həmçinin 2026-cı ilədək olan dövrdə Bərgüşadçay, Həkəriçay və Zabuxçay su anbarları, Qız qalası su anbarından magistral suvarma kanalının tikintisi həyata keçiriləcək. Bərgüşadçay su anbarı Qubadlı rayonu ərazisində təqribən 12 min hektar yeni torpaq sahəsinin suvarılmasını və Qız qalası hidroqovşağından çıxan kanalın qidalandırılmasını, Həkəriçay su anbarı Şuşa, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli, Ağdam, Beyləqan, İmişli, Saatlı, Sabirabad rayonlarında 3 mln.-a yaxın əhalinin yüksək keyfiyyətli içməli su ilə təchizatını, Zabuxçay su anbarı isə Qubadlı və Zəngilan rayonları ərazisində 12100 ha torpaq sahəsinin suvarılmasını təmin edəcək.***

Bunlarla yanaşı, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonları üzrə ayrı-ayrılıqda meliorasiya və su təsərrüfatı kompleksinin bərpası və inkişafı ilə bağlı layihələr də həyata keçiriləcək. Bu ərazilərin suvarma suyu ilə təminatı və su ehtiyatları ilə bağlı məlumatların Elektron Su Təsərrüfatı İnformasiya Sisteminə davamlı inteqrasiyası həyata keçiriləcək, mövcud su anbarları, suvarma və paylayıcı kanallar, nasos stansiyaları, subartezian quyuları, hidroqovşaqlar və digər su təsərrüfatı obyektləri mərhələli şəkildə təmir və bərpa olunacaq, yeraltı və yerüstü su mənbələrinin əsas göstəriciləri qiymətləndiriləcək, onların məlumat bazası və elektron su xəritəsi hazırlanacaq. Kəhrizlərin tədqiqi, bərpası və səmərəli istifadəsinin elmi əsaslarının işlənməsi də diqqət mərkəzində olacaq.

Azad olunmuş ərazilərin infrastrukturunun bərpasının bir istiqamətini qaz təchizatı üçün magistral şəbəkənin qurulması təşkil edir. 2023-cü ildə Böyük Bəhmənli–Şuşa (Füzuli, Şuşa, Hadrut), Azad Qaraqoyunlu–Ağdam və Goranboy-Kəlbəcər qaz kəmərləri və üzərində qazpaylayıcı şəbəkələr olmaqlar qaz kəməri qolları tikiləcək, Yevlax–Naxçıvan magistral qaz kəməri 720 mm-lik borularla yenidən qurulacaq.

***2024-cı ildə Laçın-Qorçu, Mincivan-Ağbənd, Kəlbəcər-İstisu qaz kəmərləri və üzərlərində qaz təmizləyici məntəqələr quraşdırmaqla qaz kəməri qolları inşa ediləcək. 2023-2025-ci illərdə Horadiz–Laçın qaz kəməri və üzərində qazpaylayıcı şəbəkələr quraşdırmaqla qaz kəməri qolları tikiləcək.***

2025-ci ildə isə Ağdam-Xocavənd, Ağdam-Xankəndi və Ağdam-Ağdərə qaz kəmərlərinin və üzərlərində qaz təmizləyici məntəqələr quraşdırmaqla qaz kəməri qollarının inşası planlaşdırılır.

Azad olunmuş ərazilərdə mükəmməl telekommunikasiya və poçt xidmətləri infrastrukturu da yaradılacaq. İndiyədək bu ərazilərdə fəaliyyət göstərən dövlət orqanlarının rabitə xidmətləri tam təmin olunub. Bu məqsədlə müxtəlif istiqamətlərdə 300 km-ə yaxın fiber-optik kabel xətləri çəkilib, müvafiq avadanlıqlar qurulub. Həmçinin aidiyyəti dövlət orqanları tələbata uyğun olaraq xüsusi rabitə və internet xidmətləri ilə təmin edilib. Dövlət proqramı çərçivəsində 97 məntəqə üzrə şəhərlərarası (rayonlararası) və yerli magistral telekommunikasiya xətlərinin layihələndirilməsi və qurulması həyata keçiriləcək.

Şəhər və digər yaşayış məntəqələrində xüsusi poçt rabitəsinin və poçt rabitəsi xidmətlərinin, o cümlədən poçt-maliyyə xidmətlərinin təşkil edilməsi də diqqət mərkəzindədir. Artıq Ağalı kəndində poçt fəaliyyət göstərir. Dövlət proqramı çərçivəsində daha 50 məntəqə üzrə poçt rabitəsi xidmətləri yaradılacaq.

İndiyədək azad olunmuş ərazilərdə bir neçə radio-televiziya yayımı stansiyası (RTYS) qurulub. Hazırda Şuşa RTYS-dən 10 televiziya və 7 radioproqramın, Şahyeri (Xocavənd) RTYS-dən 11 televiziya və 5 radioproqramın, Kəlbəcər, Mincivan, Xanlıq və Laçın RTYS-lərin hər birindən 8 televiziya və 2 radioproqramın yayımı həyata keçirilir. Qeyd olunan stansiyalar vasitəsilə Şuşa, Xankəndi, Xocalı, Laçın, Kəlbəcər, Xocavənd, Qubadlı, Füzuli, Cəbrayıl, Zəngilan, Ağdam və digər yaxın ətraf ərazilərdə radio-televiziya yayımları təmin edilir.

*(davamı gələn sayımızda)*

**Akademik Ziyad SƏMƏDZADƏ**

# Qlobal ərzaq təhlükəsizliyi “yeni dünya” kontekstində

***2050-ci ilə qədər dünya əhalisinin 2,2 milyard artacağı gözlənilir ki, bu da dünya fermerlərinin indi istehsal olunandan təxminən 70% daha çox məhsul istehal etməli olacaqları anlamına gəlməkdədir. Buna görə də dayanıqlı ərzaq təhlükəsizliyi siyasəti həyata keçirilməli və qida israfı azaldılmalıdır. Hesablamalara görə, hazırki dövrdə qlobal səviyyədə istehsal olunan qida məhsullarının 33-50%-i heç vaxt yeyilmir və israf olunan bu qida məhsullarının dəyəri 1 trilyon ABŞ dollarından çoxdur. Belə ki, hər il Çinin ərazisindən daha böyük ərazi yeyilməyən (israf olunan) ərzaq məhsullarının yetişdirilməsi üçün istifadə olunur. Əgər ərzaq tullantılarını ölkə kimi təsvir etsəydik, o zaman bu ölkə ABŞ və Çindən sonra istixana qazlarının üçüncü ən böyük emitenti olardı. Bütün bu qeyd olunanlarla yanaşı, dünyamızda böyük dərəcədə qida çatışmazlığı da mövcuddur (bax: diaqram 1).***

**Diaqram 1: Qida çatışmazlığı regionlar üzrə**




**Mənbə:** FAO.

Cədvəldən aydındır ki, qlobal dünyada kəskin və orta qida çatışmazlığının ən az olduğu region Şimali Amerika və Avropadır. Qida çatışmazlığının hər iki növünün ən böyük dərəcədə olduğu Afrika regionunda 2014 və 2020-ci illər arasında artım daha çox olmuş və hər 2 kateqoriya birlikdə 60% civarında qərarlaşmışdır. Sonrakı yerlərdə müvafiq olaraq Latın Amerikası və Karib regionu, Asiya və Okeaniya qərarlaşır. Ümumi dünyamızda da kəskin və orta qida çatışmazlığı artmış və 2020-ci ildə 30%-ə çatmışdır. Bunun 10%-dən çoxu kəskin qida çatışmazlığının payına düşür.

Deyilənləri nəzərə alsaq, ərzaq təhlükəsizliyinin təmin olunmasında effektiv nəticələr əldə etmiş ölkələrin həyata keçirdikləri siyasət və tənzimləmələrinə dərindən təhlil ehtiyacı olduğunu görərik. Bu aspektdən “yeni dünya” adlandırılan ABŞ-ın həyata keçirdiyi ərzaq təhlükəsizliyi siyasətinə nəzər salaq.

ABŞ Avropa İttifaqından sonra dünyanın ikinci ən böyük kənd təsərrüfatı ticarətçisidir. Birləşmiş Ştatların xarici bazarlara çıxışını genişləndirən proqramların (həm xarici, həm də daxili) həyata keçirilməsi nəticəsində son illərdə həm kənd təsərrüfatı ixracı, həm də idxalı əhəmiyyətli dərəcədə artmışdır. Rəqəmlərlə ifadə etsək, ABŞ-ın kənd təsərrüfatı məhsullarının ixracı davamlı artaraq, 1994-cü ildə 46,1 milyard dollardan 2019-cu ildə 136,7 milyard dollara yüksəlib. İxrac məhsulları arasında əsas etibarilə üstünlük təşkil edənlər soya, bağçılıq və süd məhsullarıdır. Kənd təsərrüfatı məhsullarının ixrac edildiyi ölkələri ardıcıl sıralasaq, ilk üçlükdə Çin, Kanada və Meksikanı görə bilərik.

Birləşmiş Ştatlar qlobal bazarda qarğıdalı ticarətinin 40%-ni özündə saxlayır, buna səbəb hökumət tərəfindən qarğıdalı məhsulu istehsalçılarına dəstək və geniş həcmli subsidiyaların verilməsidir. ABŞ əhalisinin fasiləsiz və keyfiyyətli qida məhsulları ilə təmin edilməsini özünün prioritet siyasəti hesab edir və ölkədə ərzaq təhlükəsizliyini ən yüksək səviyyədə təmin etmək üçün kənd təsərrüfatı sektorunun inkişafına böyük önəm verir.

**Ölkənin Kənd Təsərrüfatı Departamenti (KTD) ərzaq təhlükəsizliyinin təmin edilməsinin 4 səviyyəsini müəyyən etmişdir:**
**- Yüksək**
**- Marjinal**
**- Az**
**- Daha az səviyyəli ərzaq təhlükəsizliyi.**

ABŞ-ın 13 ştatında qida təhlüksizliyinin təminat səviyyəsi xüsusilə qərb ştatlarında orta səviyyədən aşağıdır.

Kənd təsərrüfatına dövlət tərəfindən verilən subsidiyaların, həmçinin yerli və federal idarəetmə institutlarının açıqlıq, şəffaflıq və hesabatlılıq prinsipləri əsasında fəaliyyəti bu sahənin yüksələn xətlə inkişafında təkanverici qüvvələrdir. ABŞ-da rəqəmlə ifadə etsək, 2 milyondan çox fermer təsərrüfatı fəaliyyət göstərməkdədir və onların da 3%-ni gəlirləri 1 milyon ABŞ dolları və ya daha da çox olan böyük və daha böyük adlandırılan fermer kooperativləri təşkil edir.

Fermer təsərrüfatlarının 97%-i ailələrə məxsusdur. Nəhəng fermer kooperativləri 1 məhsul istehsalı üzrə ixtisaslaşırlar ki, bu da praktikada monokultur adlanır. ABŞ KTD-nin hesablamalarına görə, 1 ABŞ ferması həm ölkədə, həm də qlobal olaraq bütünlükdə 166 insanı qidalandırır. Kənd təsərrüfatı və ona əlaqəli sənaye ümumi daxili məhsulun (ÜDM) 5% civarını, ümumi büdcə gəlirlərinin isə 1/6-ni təşkil edir, başqa sözlə, bu göstərici 1 trilyon dollardan çoxdur və bu sahələrdə çalışan insanların sayı 2020-ci ilin statistikasına görə 19,7 milyon nəfər olmuşdur ki, bu da məşğuluğun 10,3%-ni təşkil edir. Kənd təsərrüfatının inkişafında mühüm rol oynayan infrastruktur məsələlərinin – avtomobil,



dəmir yolları, hətta hava yollarının, bir sözlə geniş nəqliyyat şəbəkəsinin fomalaşdırılması, su resurslarından səmərəli istifadə, texniki-innovativ və onunla əlaqəli məsələlərin, qanunvericiliklə bağlı hüquqi çərçivənin köklü surətdə yaxşılaşdırılması Birləşmiş Ştatların kənd təsərrüfatının inkişafında baza təşkil edir.

Artıq qeyd olunduğu kimi, ABŞ kənd təsərrüfatının inkişafında subsidiyalara böyük önəm verir və KTD tərəfindən fermerlərə birbaşa və dolayı olmaqla ümumilikdə 60-dan çox yardım proqramı həyata keçirilməkdədir. Yardımın əksəriyyət hissəsi bitkiçilik məhsullarının istehsalçılarına ödənilir. Üç ən böyük təsərrüfat subsidiya proqramında (Sığorta, Kənd Təsərrüfatının Risk Təminatı (ARC) və Qiymət İtkisi (zərərinin) Təminatı (PLC)) ödənilən vəsaitlərin 70 faizindən çoxu yalnız üç məhsulun - qarğıdalı, soya və buğda istehsalçısı olan fermerlərə verilir.

Sığorta. Bu subsidiya növü 100-dən çox məhsul növünün istehsalının inkişafı üçün maliyyələşməni nəzərdə tutur, lakin əsas olaraq qarğıdalı, pambıq, lobya və buğda bu kateqoriyada öncül sırada dayanan məhsullardır. Digər aqro proqramlardan fərqli olaraq, burada gəlir limiti olmadığından milyoner və milyarder təsərrüfat sahibləri də bu subsidiya növünə müraciət edə bilər. Proqramın təxminən 80%-i gəlir defisitinin, 20%-i isə məhsul defisitinin azaldılmasını nəzərdə tutur.

Kənd Təsərrüfatının Risk Təminatı Proqramı. Bu proqram fermerlərə, əgər onların hər akr üzrə gəlirləri və ya alternativ olaraq onların hər akr üzrə ştatlarının gəlirləri meyardan və ya zəmanətli səviyyədən (qiymətlər federal hökumət tərəfindən tənzimlənir) aşağı düşərsə, subsidiyalar ödəyir. ABŞ-da fermerlər məhsul bolluğuna görə qiymətlərin aşağı olmasından narazıdırlar. Ümumiyyətlə, qiymətlər və gəlirlər nə qədər aşağı olarsa, subsidiyalar bir o qədər çox olar. Proqram buğda və qarğıdalıdan noxud və xardal toxumuna qədər 20-dən çox məhsulu əhatə edir.

Qiymət İtkisi (zərərinin) Təminatı Proqramı. Bu proqram Konqres tərəfindən müəyyən edilmiş məhsulun referans qiyməti ilə orta satış qiymətinin müqayisəsi əsasında fermerlərə subsidiyalar ödəyir. Məhsulun orta satış qiyməti onun referans qiymətindən aşağı olarsa və ya aradakı fərq nə qədər böyük olarsa, fermerlərə ödəniş də bir o qədər çox olar. Referans qiymətləri yüksək təyin olunduğundan ödənişlərin edilməsi halları azlıq təşkil edir. Proqram 20-dən çox məhsulu əhatə edir.

Birləşmiş Ştatlarda aqrar sektorun güclü inkişafı aqrobizneslərin yaranması ilə nəticələnmişdir. Keyfiyyətcə yeni termin olan aqrobiznesin mahiyyəti belədir: aqrobiznes sənayesindəki şirkətlər qida istehsalının bütün aspektlərini, eləcə də təsərrüfat və təsərrüfatçılıqla bağlı kommersiya fəaliyyətini əhatə edir. Daha dəqiq desək, kənd təsərrüfatı məhsulunu bazara çıxarmaq üçün tələb olunan bütün mərhələləri, yəni istehsal, emal və paylamanı özündə birləşdirir.

Kiçik və orta ölçülü fermer təsərrüfatları getdikcə rəqabətədavamlı qalmaq üçün strategiya olaraq aqroturizm kimi fəaliyyət növündən istifadə edirlər. Aqroturizm ziyarətçiləri əyləndirmək, maarifləndirmək və təsərrüfat üçün gəlir əldə etmək məqsədilə fermaya, rançoya və ya digər kənd təsərrüfatı biznesinə ziyarətçilərin cəlb edilməsi məqsədilə kənd təsərrüfatı istehsalı və ya emalını turizmlə birləşdirən ticarət müəssisəsinin formasıdır. Aqroturizm ABŞ fermerlərinə və rançolarına “İşləyən Ferma Turları” və ya “Öz meyvə və tərəvəzlərini seç” proqramları kimi istirahət və ya təhsil fəaliyyətlərindən gəlir əldə etməyə kömək edir. Aqroturizm, həmçinin kənd yerlərinin iqtisadiyyatını canlandırmaq, ictimaiyyəti kənd təsərrüfatı haqqında maarifləndirmək və kənd təsərrüfatı irsini qoruyub saxlamaq potensialına malikdir. Bundan əlavə, icma yönümlü təsərrüfatlar aqroturizmi cəlbedici variant hesab edirlər, çünki bu, yerli sakinlər üçün daha çox iş yeri imkanları yaradır.

Dayanıqlı kənd təsərrüfatı ABŞ-da yüksək səviyyəli inkişafla xarakterizə olunur. Dayanıqlı kənd təsərrüfatı dedikdə torpağın münbitliyinin artırılması, sudan istifadənin minimallaşdırılması və çirklənmə səviyyəsinin azaldılması məqsədləri nəzərdə tutulur ki, bu da dünya ölkələri tərəfindən qarşıdakı dövr ərzində dayanıqlı ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından implementasiyası zəruri olan prioritetlər sırasındadır.

Yüksək iqtisadi inkişaf səviyyəsi ilə tanınan ABŞ kənd təsərrüfatı məhsullarının ixracında da qlobal liderlər sırasındadır. Birləşmiş Ştatlar qlobal bazarda tək qarğıdalı ticarətinin 40%-ni özündə saxlayır, başqa deyimlə, o, Avropa İttifaqından sonra dünyanın ikinci ən böyük kənd təsərrüfatı ticarətçisidir. ABŞ-ın kənd təsərrüfatı məhsullarının ixracında hər 1 milyard dollar daxili iqtisadi fəaliyyətə əlavə 1,14 milyard dollar stimul verir və ölkə iqtisadiyyatında 7000-dən çox tam zamanlı iş yerlərinin fəaliyyət göstərməsinə şərait yaradır. Bu isə təkcə fermada deyil, qida emalı və nəqliyyat kimi əlaqəli sənayelərdə 1,3 milyondan çox iş yerinin olması deməkdir. Ərzaq təhlükəsizliyinin təmini baxımından yanaşsaq, əhalinin yoxsulluq səviyyəsinin azaldılması, işsizlik səviyyəsinin minimumlaşdırılması və ya sıfıra endirilməsi ərzağa əlçatanlıq kontekstində vacib rol oynayır.

Kənd təsərrüfatının inkişafı nəticəsində yüksək səviyyəli ərzaq təhlükəsizliyinin təmin olunması ilə yanaşı, ABŞ ölkədə aztəminatlı şəxs və ailələrin ərzaq əlçatanlığını təmin etmək üçün bir sıra federal ərzaq təhlükəsizliyi proqramları tətbiq etməkdədir. Həmin proqramlar içərisində ən əsasları SNAP və TEFAP-dır.

Əlavə Qida Yardımı Proqramı (SNAP). Birləşmiş Ştatlarda aclıq ilə mübarizə sahəsində həyata keçirilən ən böyük proqramdır. SNAP proqramı hər kəs üçün nəzərdə tutulmuşdur: ailələr, yaşlılar, əlillər, işsizlər və ya işləyən insanlar, veteranlar və ya həqiqi hərbi xidmətdə olanlar.

Ailələr və ya şəxslər iştirak üçün proqramın internet saytında və ya mobil aplikasiyasında tələb olunan məlumatları doldurur, 30 günlük yoxlamadan sonra isə müsahibəyə çağırılır və sonrasında bütün məlumatların doğruluğu şəraitində iştirakçıya çevrilirlər. Proqrama qoşulmaq üçün hər bir ştat tərəfindən müəyyən tələblər formalaşdırılmışdır. Lakin federal hökumət bütün ölkə üçün ümumi olaraq aşağıdakı tələbləri müəyyənləşdirmişdir:

- Ailələrin gəlirləri nəzərdə tutulan səviyyədən aşağı olmalıdır;
- Bankdakı əmanətlərin məbləği və ya aktivləri müəyyən olunan məbləğdən az olmaldır;
- Ailə üzvlərindən ən azı birinin ABŞ vətəndaşlığı və ya immiqrasiya statusu olmalıdır (qrafik 1).

Covid-19 pandemiyası səbəbindən həm iştirakçı sayı, həm də proqrama ayrılan vəsait artmaqdadır. Belə ki, 2019-cu ildə 35,7 milyon insan proqram iştirakçısı idisə, 2021-ci ilin avqust göstəricisinə görə bu rəqəm 42 milyon nəfər təşkil etmişdir və aylıq ortalama adambaşına 213 ABŞ dolları, hər ailəyə isə 408 ABŞ dolları vəsait ödənilmişdir.

SNAP-dan istifadə edən insanlara debet kartına bənzər müavinət kartı verilir və bu karta yerli mağazalardan və ya fermer bazarlarından ərzaq məhsulları almaq üçün aylıq vəsait köçürülür. Köçürülən vəsaitin həcmi ailə üzvlərinin sayından və gəlirdən asılı olaraq dəyişir. Bu vəsaitlə ailələr və ya şəxslər yalnız meyvə və tərəvəz, ət, balıq və quş əti, süd məhsulları, çörək və un məmulatları, qəlyanaltılar və içkilər, toxum və bitkilər (yetişdirib qidalanma məqsədilə istifadə üçün) ala bilərlər. SNAP vasitəsilə alınması mümkün olmayan məhsullara aiddir: alkoqol və tütün məmulatları; qeyri-qida məhsulları, məsələn təmizlik ləvazimatları, gigiyenik məhsullar, ev heyvanları üçün yeməklər, körpə üçün ləvazimatlar; vitaminlər və dərmanlar.

SNAP-ın məqsədi vəsaiti alan şəxslərin ərzaq təminatını yaxşılaşdırmaqla həmin şəxslərin hər hansı digər fəaliyyət yolu ilə əldə edə biləcəyi məbləği tibbi, kommunal və kirayə kimi xərclərin ödənməsi üçün sərf edilməsinə şərait yaratmaqdır.

Zəruri Qida Yardımı Proqramı (TEFAP). Bu proqramda SNAP-dan fərqli olaraq, ailələrə və ya şəxslərə heç bir vəsait ödənilmir. ABŞ Kənd Təsərrüfatı Departamenti proqram vasitəsilə müxtəlif qida məhsulları, o cümlədən yüksək keyfiyyətli kənd təsərrüfatı məhsulları alaraq, ştatlar üzrə paylayıcı agentliklərə verir. Hər bir ştat isə alınan məhsulları İcma Fəaliyyəti Agentlikləri arasında bölüşdürür və həmin agentliklər ərzaqları birbaşa aztəminatlı ailələrə çatdırırlar. Paylanma meyarı hər ştatda müəyyən olunmuş say əsasında həyata keçirilir. TEFAP-ın əsas məqsədi ölkə üzrə aşağı gəlirli, yəni gəlirləri yoxsulluq səviyyəsindən aşağı olan şəxslərin, işsiz və yaşlı insanların qida təminatının yaxşılaşdırılmasına xidmət etməkdir. Proqram 120 adda məhsulu, o cümlədən meyvə-tərəvəz, ət, balıq, quş əti, yumurta, süd, qoz-fındıq, pendir, dənli bitkilər, həmçinin düyü, un məmulatları, makaron kimi məhsulları əhatə edir. TEFAP-ın maliyyələşdirilməsi “Təsərrüfat” Qanunu ilə hər 5 ildən bir həyata keçirilir. Təkcə 2020-ci ildə 653 milyon ABŞ dolları TEFAP çərçivəsində xərclənmişdir.

**Qrafik 1: Əlavə Qida Yardımı Proqramına (SNAP) illər üzrə ayrılan vəsait, milyard ABŞ dolları ilə (2021 avqust)**




**Mənbə:** US Department of Agriculture, Food and Nutrition Service məlumatları əsasında hazırlanıb.

**İqtisadçı ekspert**
**Maqsud QULİYEV**



## Азербайджан - важный энергетический партнер Великобритании



Азербайджан является важным торговым и энергетическим партнером Великобритании.
Об этом на своей странице в Twitter написал находящийся с официальным двухдневным визитом в Азербайджане государственный министр Великобритании по делам Европы и Северной Америки Лео Доэрти по итогам встречи с министром иностранных дел Азербайджана Джейхуном Байрамовым.
"В моем разговоре с министром Байрамовым я подчеркнул приверженность Великобритании миру и безопасности в регионе", - добавил он.
Госминистр также встретится с помощником Первого вице-президента Азербайджана Эльчином Амирбековым и министром цифрового развития и транспорта Рашадом Набиевым.
Доэрти подпишет Меморандум о взаимопонимании с Государственным таможенным комитетом и обсудит с министром цифрового развития и транспорта международные автомобильные перевозки между Великобританией и Азербайджаном.
Он также посетит компанию JCB, британского производителя оборудования для строительства, работающего в Азербайджане, и встретится с высокопоставленными чиновниками, ведущими работу по переходу к "зеленой" энергетике.

## Министр энергетики о планах по добыче нефти и газа на 2023 год

В нынешнем году в Азербайджане планируется добыть 33,4 миллиона тонн нефти и 47,2 миллиарда кубометров газа.
Об этом сказал в среду министр энергетики Азербайджана Парвиз Шахбазов в ходе мероприятия «Общенациональный лидер Гейдар Алиев является автором независимой энергетической политики Азербайджана».
По его словам, на экспорт планируется выделить 24,5 миллиарда кубометров газа.
«Новые энергетические проекты Азербайджана позволят еще больше увеличить объемы экспортируемых нефтепродуктов. Южный газовый коридор имеет большой потенциал в обеспечении энергетической безопасности Европы и планы по увеличению пропускной способности этого коридора будут реализованы», - отметил он.

## В 2023 году ряд секторов Азербайджана перейдет на бюджетный механизм



В 2023 году в Азербайджане планируется завершить переход на бюджетный механизм, ориентированный на результат в пилотных секторах образования, сельского хозяйства и охраны окружающей среды.
Об этом заявил глава ведомства Самир Шарифов во время выступления на семинаре «Внедрение рамок среднесрочных расходов (РСР) в секторе образования и переход к бюджетному механизму, ориентированному на результат».
«С этого года в пилотных секторах, в которых проводятся реформы, с целью совершенствования управления государственным бюджетом, планируется завершить переход на бюджетный механизм, ориентированный на результат, усовершенствовать и внедрить программный бюджет, а также привлечь в процесс реформ секторы здравоохранения, социальной защиты и социального обеспечения, молодежи и спорта, культуры и туризма», - отметил Шарифов.
Он подчеркнул, что в связи с этим с 2023 года планируется начать работу по внедрению РСР в новых привлекаемых секторах и переходу к бюджетному механизму, ориентированному на результат.

## ЦБ Азербайджана утвердил дорожную карту по устойчивому финансированию




Центральный банк Азербайджана (ЦБА) утвердил дорожную карту по устойчивому финансированию на 2023-2026 годы.
Целью дорожной карты является обеспечение устойчивости финансовых институтов к рискам, возникающим в результате изменения климата и других факторов ЭСУ (экологических, социальных и управленческих), а также реализация возможностей, связанных с переходом к устойчивой экономике.
«Дорожная карта разработана с учетом передового международного опыта и включает в себя меры по интеграции климатических изменений и критериев ЭСУ в рамки регулирования и контроля финансового сектора, включая интеграцию финансовых институтов в процессы принятия стратегических решений и управления рисками, формирование соответствующих рыночных стандартов в этой области и формирование экосистемы устойчивых финансовых инструментов», - говорится в сообщении.
Отмечается, что в целом реализация дорожной карты будет способствовать формированию в стране здорового, устойчивого и эффективного финансового сектора.

# В МИРЕ

## В зоне бедствия за год планируется построить до 270 тыс. домов

Процесс восстановления провинций Турции, пострадавших в результате разрушительных землетрясений 6 февраля, стартует уже в марте текущего года. Об этом сообщил президент Реджеп Тайип Эрдоган во вторник в ходе посещения города Нурдагы в провинции Газиантеп, передает Trend со ссылкой на «Анадолу».
По словам президента, в течение года в городах одиннадцати провинций страны планируется построить до 200 тыс. домов. Еще 70 тыс. домов будет построено в селах зоны бедствия.
Он отметил, что на основе мониторинга ситуации в зоне бедствия, в ближайшие месяцы будет определено точное количество жилых единиц под строительство.



Глава государства сообщил, что за последние недели только из провинции Газиантеп в другие части страны были эвакуированы 87 тыс. жителей.
Эрдоган выразил уверенность в том, что благодаря сплоченности народа и государства, удастся устранить последствия и этого бедствия.

## В Британии вводят четырехдневную рабочую неделю



В Британии 18 компаний, в том числе в сфере образования, информационных технологий и финансов объявили, что введут четырехдневную рабочую неделю на постоянной основе по результатам прошлогоднего эксперимента. Об этом во вторник сообщила газета Financial Times.
Еще 38 фирм решили продолжить работать по такому графику. Всего же в пилотном проекте сокращенной рабочей недели, стартовавшем в середине прошлого года, принимали участие 61 компания.
Выручка этих компаний за вторую половину 2022-го, согласно утверждению издания, в среднем выросла более чем на треть. Значительно сократилось число увольнений, уменьшилось количество тех, кто работал на износ. 40% сотрудников заявили, что испытывают меньший стресс.

## США примут саммит НАТО в 2024 году



США проведут в следующем году саммит НАТО. Об этом сообщил во вторник американский президент Джо Байден, выступая в Варшаве.
«США вместе с союзниками и партнерами продолжат поддерживать Украину. В следующем году я приму всех членов НАТО на саммите в США, - сказал он. - Вместе мы отметим 75-летие самого сильного оборонительного союза в мировой истории».
«Приверженность США своим союзникам по НАТО и пятой статье [Вашингтонского договора НАТО] как скала.
Каждая страна НАТО это знает, Россия также это знает», - сказал Байден.

## Цель миссии ЕС в Армении - вытеснить Россию из региона

Целью развертывания в Армении гражданской миссии ЕС является вытеснение России из региона Южного Кавказа.
Как передает Trend, об этом говорится в статье сербской ежедневной газеты-таблоида "Новости".
Цитируя заявление министерства иностранных дел России, авторы статьи подчеркивают, что это является не чем иным, как геополитическим проектом, направленным против России, и добавляется, что миссия не улучшит ситуацию с безопасностью в регионе.
В статье отмечается, что Брюссель также проигнорировал критику этой инициативы со стороны Баку. На прошлой неделе глава азербайджанского парламента Сахиба Гафарова подчеркнула, что миссия может "помешать процессу нормализации" отношений между Баку и Ереваном.
"Москва настаивает на том, что только трехсторонние договоренности, достигнутые Азербайджаном, Россией и Арменией, могут служить основой для нормализации ситуации в регионе. Соглашения включают в себя демаркацию границ двух соседних стран, открытие транспортных путей и установление контактов между гражданскими группами, законодателями и религиозными лидерами двух стран", - говорится в статье.
Напомним, что гражданская миссия Евросоюза в Армении (EUMA) начала свою работу 20 февраля 2023 года.
По данным Еврокомиссии, исключительно гражданский персонал миссии будет состоять из 100 человек, включая около 50 гражданских наблюдателей.
Управляющий директор внешнеполитической службы ЕС по гражданскому планированию и поведению Стефано Томат будет выполнять функции гражданского командующего операцией, а Маркус Риттер будет руководить миссией.
Первоначальный мандат миссии охватывает два года.



*Qarabağın görkəmli simaları*

# Səttar Əsədov (1910-1974)

Görkəmli alim, akademik Səttar Məcid oğlu Əsədov 1910-cu il martın 15-də Şuşa şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Biologiya fakültəsini bitirmiş (1939), biologiya üzrə fəlsəfə doktoru (1945) və elmlər doktoru (1961) dissertasiyalarını müdafiə etmişdir. Azərbaycan SSR EA-nın müxbir üzvü (1962) və həqiqi üzvü (1968) seçilmişdir. Azərbaycan EA-nın Zoologiya İnstitutunda Helmintologiya laboratoriyasının müdiri (1945-1974), elmi işlər üzrə direktor müavini (1947-1950) və direktor (1950-1960) vəzifələrində işləmişdir.



S.M.Əsədovun tədqiqatları Azərbaycanın müxtəlif zonalarında vəhşi və əhli gövşəyən heyvanların helmint faunasının ekoloji-coğrafi analizinə, kənd təsərrüfatı heyvanlarının helmintoz xəstəliklərinə (canlı orqanizmlərdə yaşayan qurdlar və onların törətdiyi xəstəliklərə) qarşı mübarizə tədbirlərinin elmi əsaslarla işlənib hazırlanmasına həsr olunmuşdur. Alim tərəfindən elmə məlum olmayan 12 yeni helmint növü aşkar edilmişdir. O, gövşəyənlərin helmint faunasının respublika ərazisi üzrə paylanmasında üfüqi və şaquli zonallığı müəyyənləşdirmiş və bu ərazini 3 əsas ekoloji aran, dağətəyi və dağlıq zonalarına, Böyük Qafqaz sıra dağlarının ətəkləri, hündürlükləri də daxil olmaqla Mərkəzi və Şərqi Azərbaycanı əhatə edən bir neçə yarımzonaya bölmüşdür. Azərbaycanda ilk dəfə düzənlik zonada 5 yarımzona (şimal-şərqi Azərbaycan; Abşeron-Qobustan, onlarla yanaşı çöllüklərin xam hissələri; Kür-Araz düzənliyi; Lənkəran təbii vilayəti; qərbi Azərbaycanın aran hissəsi), dağətəyi zonada 4 yarımzona (Böyük Qafqazın cənub ətəklərində, Böyük Qafqazın şərq ətəklərindəki rayonlar, Kiçik Qafqazın Kür-Araz düzənliyinə baxan ətəkləri, Talış dağlarının ətəkləri) və dağlıq zonada 2 yarımzona (Böyük Qafqaz dağlarının hündürlükləri, Kiçik Qafqaz dağlarının hündürlükləri) ayırd edilmişdir.

S.M.Əsədovun rəhbərliyi və redaktorluğu ilə 1975-ci ildə Azərbaycanda Kənd Təsərrüfatı heyvanlarının helmint və helmintozlarının zonalar üzrə yayılması və helmintozlarla mübarizənin gücləndirilməsi üzrə xəritələr nəşr edilmişdir.

Akademik S.Əsədov 132 elmi əsərin, o cümlədən 3 monoqrafiya, 1 kitab, bir neçə elmi-kütləvi kitabçanın müəllifi və həmmüəllifidir. O, orta məktəb üçün "Zoologiya" dərsliyinin, "Zooloji terminlər lüğəti"nin, "Azərbaycanın heyvanlar aləmi" monoqrafiyasının tərtibçilərindən biri olmuşdur. S.M.Əsədovun rəhbərliyi ilə 8 fəlsəfə doktoru və 2 elmlər doktorluğu dissertasiyası müdafiə edilmişdir.

O, respublikanın elmi-istehsalat konfranslarında, xaricdə keçirilən helmintoloji qurultay, konfrans və beynəlxalq konqreslərdə müxtəlif mövzularda məruzələr etmişdir.

S.M.Əsədov Azərbaycan SSR Elmlər Akademiyası Terminologiya komissiyanın, Azərbaycan Sovet Ensiklopediyasında biologiya elmləri redaksiyasının, Azərbaycan Elmlər Akademiyasının Biologiya Elmləri Bölməsinin və Zaqafqaziya respublikalarının Faunistik komissiyasının üzvü olmuşdur. Azərbaycan Helmintoloqlar Cəmiyyətinə uzun illər sədrlik etmişdir. Ümumittifaq "Bilik" Cəmiyyətinin Biologiya şöbəsinin və Azərbaycan Təbiəti Mühafizə Cəmiyyətinin fauna bölməsinin sədri olmuşdur.

S.M.Əsədov "Şərəf nişanı" ordeni və bir sıra medallarla təltif edilmişdir.

Akademik Səttar Əsədov 11 fevral 1974-cü ildə Bakıda vəfat etmişdir. Şuşa şəhərində akademik Səttar Əsədovun adını daşıyan küçə var.

# Bakcell rəhbərliyində yeni təyinatlar

Bakcell şirkətinin baş icraçı direktoru vəzifəsinə Klaus Müller təyin edilib.

Telekommunikasiya sahəsində 30 ildən çox iş təcrübəsinə malik olan Klaus Müller Avropanın bir çox böyük telekommunikasiya şirkətlərində rəhbər vəzifələrdə çalışıb. O, Almaniya, ABŞ, Macarıstan, Azərbaycan və digər ölkələrdə iri telekommunikasiya şirkətlərində genişmiqyaslı transformasiya proqramları və strategiyaların həyata keçirilməsi ilə bağlı zəngin təcrübəyə malikdir. Klaus Müller Almaniya, İspaniya və ABŞ-da iqtisadiyyat, strateji idarəetmə və biznesin idarə edilməsi üzrə təhsil alıb və iqtisadiyyat üzrə fəlsəfə doktorudur.





"Müasir dövrdə telekommunikasiya sənayesi üçün dəyişikliklərə çevik reaksiya vermək, abunəçilərin ehtiyaclarını anlamaq və innovativ həllər təklif etmək çox vacibdir. Yüksək mobil internet sürəti, şəbəkənin geniş əhatə dairəsi və müştəri məmnuniyyətinin yüksək səviyyədə olması sayəsində Bakcell Azərbaycanın telekommunikasiya bazarında aparıcı mövqeyə malikdir. Mən "Bakcell"də işə başlamaqdan çox məmnunam. Biz komanda ilə birlikdə şirkətin bazar mövqeyi və texnoloji üstünlüyünün daha da möhkəmləndirilməsi və innovativ rəqəmsal layihələrin həyata keçirilməsi üzərində çalışacağıq", - deyə Klaus Müller bildirib.

Qeyd edək ki, 2019-cu ildən başlayaraq "Bakcell"in baş icraçı direktoru vəzifəsində çalışmış Rainer Rathgeber şirkətin uğurlu fəaliyyətinə töhfə verib. Bu illər ərzində Bakcell şirkətinin Azərbaycanın telekommunikasiya bazarındakı mövqeyi daha da güclənib.

Həmçinin, NEQSOL Holding-in Qrup üzrə Baş Maliyyə Direktoru və NEQSOL Holding Azərbaycan ofisinin rəhbəri İmran Əhmədzadə Bakcell şirkətinin Direktorlar Şurasının üzvü təyin edilib. İmran Əhmədzadənin bank, enerji, telekommunikasiya və tikinti sahələrində 20 illik təcrübəsi var. O, 2013-cü ildə NEQSOL Holding-in tərkibinə daxil olan Nobel Energy-də Xəzinədarlıq üzrə Baş Direktor, 2017-ci ildə NEQSOL Holding-də Baş Maliyyə Direktorunun müavini, 2018-ci ildə isə Baş Maliyyə Direktoru təyin olunub. O, həmçinin Vodafone Ukraine, Nobel Energy, Norm və Holdinqin tərkibindəki digər şirkətlərin Direktorlar Şurasının üzvüdür. İmran Əhmədzadə Harvard Biznes Məktəbinin məzunudur.

NEQSOL Holding-in tərkibinə daxil olan Bakcell Azərbaycanda ən son VoLTE və eSIM texnologiyalarını tətbiq edən ilk mobil operatordur. 2023-cü ilin əvvəlində şirkət Bakının seçilmiş ərazilərində 5G-nin sınaq tətbiqini elan edib. Bakcell şəbəkəsi Ookla® tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" kimi tanınıb.

# Dr.Təranə Qonaqova: "Bəzi qaydalara riayət etməklə immuniteti möhkəmləndirmək mümkündür"

***Payız və qış aylarında havanın temperaturunun enməsi, yüksək rütubət və dəyişkən hava insanın immunitetini zəiflədərək, onun orqanizmini xəstəliklərə qarşı daha dözümsüz edir. Bəs özümüzü xəstəliklərdən necə qoruyaq? İmmuniteti möhkəmləndirmək üçün nə etmək lazımdır?***

Mərkəzi Gömrük Hospitalının Tibbi Laboratoriyasının həkim-immunoloqu Təranə Qonaqova immuniteti artırmağın yolları barədə suallarımızı cavablandırıb.

***- Təranə həkim, immuniteti artırmaq üçün nə etmək lazımdır?***

- İmmunitet və ya immun sistemi orqanizmə kənardan daxil olan bakteriya, virus, göbələk və s. kimi hər hansı bir yad toxumaya, cismə qarşı mübarizə aparır. Həmçinin, köhnəlmiş hüceyrələrin məhvinə nəzarət edərək, bizi onkoloji xəstəliklərdən qoruyur. İmmun sistemi ana bətnində formalaşır və ekologiya, həyat tərzi və irs ilə bağlıdır. Bəzi qaydalara riayət etməklə immuniteti möhkəmləndirmək mümkündür. Sağlam insanın kənar təsirə ehtiyacı yoxdur, sadəcə immunitetin düzgün işləməsi üçün şərait yaratmaq kifayətdir. Bu, xüsusən payız və qış aylarında aktualdır. Çünki məhz bu aylarda bir çox insanların xəstəliklərə qarşı müqaviməti zəifləyir. Buna səbəb isə günəş işığının azlığıdır, çünki gün işığı immunitetin təbii stimulyatoru və yaxşı əhval-ruhiyyənin mənbəyidir. Pozitiv olun, hər yeni günə sevinin. Eyni zamanda, peyvəndlənməyə laqeyd yanaşmayın.

Özünüzü normal fiziki formada saxlayın. Təmiz havada gəzinti və idman orqanizmi oksigenlə zənginləşdirir, toksik maddələrin bədəndən çıxmasına səbəb olur.

Yuxu rejimi güclü immunitetin əsas şərtidir. Altı saatdan az olan gecə yuxusu immun hüceyrələri olan leykositlərin azalmasına səbəb olur, antidepressant və antioksidant sayılan melatoninin ifrazını azaldır.

***- Təranə həkim, hansı qidalar bu aylarda faydalıdır?***

- Düzgün balanslaşdırılmış qidalar möhkəm immunitetin rəhnidir.



Vitaminlərlə, mikroelementlərlə, zülallarla zəngin qidalardan istifadə etmək məsləhətdir. Leykosit hüceyrələrinin sintezini stimullaşdıran vitamin C tərkibli ərzaqlara alma, sitrus meyvələri, giləmeyvələr, bolqar bibəri, fermentləşmiş kələm, itburnu, cəfəri, şüyüd və s. aiddir.

Vitamin D immun sisteminin stimullaşdırılmasında əsas rol oynayır. Vitamin D defisiti zamanı T hüceyrələri yetərincə aktivləşmir və bu səbəbdən patogen mikroorqanizmlar vaxtında aşkar olunmadığı üçün xəstəliyin uzun sürməsinə səbəb olur. Yumurtanın sarısı, kərə yağı, dəniz məhsulları, çərəzlər bu vitaminin təbii mənbəyidir. Vitamin A burun və sinusların selikli qişasının membranlarının bütövlüyünü təmin edir. Leykositlərin faqositar aktivliyini çoxaldaraq, baryer funksiyasını təmin edir və bununla immunitetə təsir göstərir. Balıq yağı, qara və qırmızı kürü, yumurta sarısı, kərə yağı, qaraciyər, tərəvəzlərdən bolqar bibəri, kök, brokkoli, kərəviz kimilər vitamin A mənbəyidir.

Minerallardan vacib olan sink T hüceyrələrini aktivləşdirir, interferon ifrazını artırır, timus vəzini stimullaşdırır. Sinkə ən çox qırmızı ət, qaraciyər, dəniz məhsulları, mərcimək, boranı tumları, küncüt, günəbaxan tumu və s.-də rast gəlinir.

Bundan əlavə, immun müqaviməti bağırsağın sağlam mikrobiomundan asılıdır. Əgər bağırsaqda disbalans varsa, bu halda müdafiə zəifləyir. Sağlam balansı saxlamaq üçün qida rasionuna fermentləşdirilmiş süd məhsulları, qatıq, yoqurt və tərəvəz daxil etmək məqsədəuyğundur.

***- Təranə həkim, immuniteti zəiflədən qidalar və vərdişlər hansılardır?***

- Stress orqanizmdə bioloji özünüməhvetmə mexanizmini işə salır və bununla da müqavimətə mənfi təsir göstərir, xüsusilə də T-limfositlərin sayını azaldır. Qlükoza bir çox patogen orqanizmlər üçün ən arzuolunan qida mənbəyidir. Qlükoza qanda çox olarsa, infeksiya ilə mübarizə edən leykositlərin aktivliyi düşür. Bu səbəbdən qənnadı məhsulları, çörək-bulka məmulatı kimi tez həzm olunan karbohidratları rasiondan çıxarıb, əvəzində mürəkkəb karbohidratlar və sellülozanı yüksək miqdarda tərkibli məhsullarla əvəz etmək lazımdır.

Mütəmadi olaraq alkoqol və nikotin istifadəsi İqM, İqG sintezini pozur, leykositlərin aktivliyini azaldır. Bundan əlavə, bədənin toxuma və mayelərindən bakteriya hüceyrələrinin divarını məhv edən ferment lizosim yoxa çıxmağa başlayır və bunun nəticəsində xəstəlik törədən mikroorqanizmlərə qarşı müqavimət azalır.

Antibiotik qəbulu xəstəlik törədən patogen mikroorqanizmlərdən əlavə, bağırsağın vacib olan mikrobiomuna da təsir edir. Nəzərə alsaq ki, bağırsağın immun sistemi bütün orqanizmin immun sisteminin 70-80%-ni təşkil edir, təsəvvür etmək olar ki, bu preparatlar nə dərəcədə immun sistemini zəiflədir. Bu səbəbdən antibiotiklərin qəbulu yalnız məqsədyönlü həkim məsləhəti olduqda tövsiyə olunur.

***- Müsahibəyə görə təşəkkür edirik.***

**Müsahibəni apardı:**
**Dilara Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının**
**PR mütəxəssisi**

# Azərbaycanda dövlət qurumlarına "Microsoft" lisenziyaları artıq pulsuz paylanmayacaq

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında "AzInTelekom" MMC dövlət qurumları üçün "Microsoft" məhsullarının pulsuz paylanması ilə bağlı müqavilənin uzadılmasını planlaşdırmır.




Açıqlamaya görə, hazırda qurumlar özləri birbaşa ödənişləri həyata keçirirlər:

"2018-ci ildə "AzInTelecom" MMC tərəfindən dövlət qurumlarından öncədən toplanmış lisenziya tələbatına əsasən dəstək məqsədilə onlara lisenziyalar paylanılıb və dövlət qurumları "Microsoft" məhsulları ilə 3 illik ödənişsiz olaraq təmin edilib.

Hazırda isə lisenziyanın yenilənməsi məqsədilə bir sıra dövlət qurumları fərdi qaydada "Microsoft" şirkətinə müraciət edirlər".

Qeyd edək ki, bir sıra dövlət orqanlarının İT üzrə məsul şəxsləri "Microsoft" məhsullarının qiymətlərinin yüksək olmasından və nəticədə qurumun illik büdcəsinin kifayət qədər böyük hissəsinin məhz bu məhsulların lisenziyalarının alınmasına xərclənməsindən şikayətlənir.

Onlar lisenziyaların yenidən pulsuz paylanmayacağı təqdirdə pulsuz sistemi olan "Linux" və ya digər alternativlərə keçid edəcəklərini bildiriblər. Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) də qeyd edilən problemdən xəbərdar olduqlarını və onun həlli istiqamətində müzakirələr aparmaq niyyətində olduqlarını açıqlayıb.

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Konfederasiyasının prezidenti Məmməd Musayevə həyat yoldaşı
**AFAQ MUSAYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Konfederasiyasının prezidenti Məmməd Musayevə həyat yoldaşı
**AFAQ MUSAYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**